# DÜŞÜNƏN İNSAN

№ 30 - Mart 2014 - 2 AZN

# TERRORUN DİNİ YOXDUR



ISSN 2311-6811
9 772311 681001 >

- Ailə həyatında qadına verilən dəyər
- İnsan bədəni robot olsaydı
- Yeni bir sivilizasiya qurulmalıdır
- Gözlərin qorunmasında kirpiklərimizin rolu
- Həzrəti İsanın (Ə.S) həyatı,mübarizəsi və üstün əxlaqı
- Xoşbəxtlik imanla olur
- Firon dövründəki hədə-qorxu şəraitində iman gətirən möminlər
- Allah`ın canlılardakı rəng sənət
- Mikroelektrik açarlarına ilham mənbəyi olan palma böcəkləri
- Quran müsəlmanlığı

# DÜŞÜNƏN İNSAN


| | |
|---|---|
| Gənclərin Mənəvi İnkişafı İctimai Birliyinin bəyanatı | 4 |
| İslam dünyasında keçən ay | 8 |
| İnsan bədəni robot olsaydı | 10 |
| Allah`ın Quranda bildirdiyi nümunəvi müsəlman xarakterinə necə yiyələnmək olar? | 14 |
| Xocalı faciəsi | 20 |
| Gözlərin qorunmasında kirpiklərimizin rolu | 22 |
| Xoşbəxtlik imanla olur | 26 |
| Firon dövründəki hədə-qorxu şəraitində iman gətirən möminlər | 30 |
| Mikroelektrik açarlarına ilham mənbəyi olan palma böcəkləri | 34 |
| Yeni bir sivilizasiya qurulmalıdır | 36 |
| Fosillər təkamülü təkzib edir | 38 |
| Həzrəti İsanın (Ə.S) həyatı,mübarizəsi və üstün əxlaqı | 44 |
| Terrorun dini yoxdur | 52 |
| Ailə həyatında qadına verilən dəyər | 54 |
| Müsəlman dünyasının sülhə qovuşmasının yeganə həlli: Quran müsəlmanlığı | 56 |
| Allah`ın canlılardakı rəng sənəti | 60 |



DÜŞÜNƏN İNSAN
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Mart 2014; № 30
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Reyestr № 3418



Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91
E-mail:info@dusuneninsan.az
www.dusuneninsan.az
Ünvan: AZ1000 Abonent qutusu 35, Bakı, Azərbaycan



Çapa imzalanma tarixi: 28.02.2014
Şərq-Qərb mətbəəsində çap edilib.
Tiraj: 300
Qiyməti: 2 manat



Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxtaqədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allah'dır. (Bütün bu dəlillərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza bəlkə, inanasınız!

(Rad surəsi, 2)

*İslam dini bütün gözəl ümumbəşəri dəyərləri ehtiva edir. Həqiqət bundan ibarətdir. Ancaq, əfsuslar olsun ki, islam dininə qarşı aparılan çirkin təbliğat kampaniyası hələ də davam edir. Biz həm bu yalan və böhtan üzərində qurulmuş kampaniyaları dağıtmalı, həm də öz təbliğat işimizi daha da güclü şəkildə aparmalıyıq, eyni zamanda, bizim, yəni, İslam dünyasının birləşməsi bu kampaniyanı aparanlara ən gözəl cavab ola bilər.*

**İlham Əliyev**



# Gənclərin Mənəvi İnkişafı İctimai Birliyinin Bəyanatı

**Radikalizmə qarşı ən təsirli mübarizə üsulu xurafata deyil, Qurani-kərimə əsaslanan həqiqi İslam əxlaqının insanlara çatdırılmasıdır.**

www.gmiib.az saytının məlumatına görə, Gənclərin Mənəvi İnkişafı İctimai Birliyi radikalizmlə bağlı bəyanat yaymışdır. Bəyanatda belə deyilir:

Radikalizmə qarşı ən təsirli mübarizə üsulu xurafata deyil, Qurani-kərimə əsaslanan həqiqi İslam əxlaqının insanlara çatdırılmasıdır.

Son zamanlar ölkəmizdə din adı altında aktivləşən radikal cərəyanların fəaliyyətinin artdığı müşahidə olunur. Bu, həm Dini Qurumlar üzrə Dövlət Komitəsini, həm təhlükəsizlik orqanlarını narahat etdiyi kimi, ictimai birlik olaraq bizi də narahat edir. Xüsusilə gənclərimizin cihad adı altında digər ölkələrə döyüşməyə göndərilməsi və çoxsaylı ölüm xəbərləri həqiqi İslam anlayışının təbliğinə, bu istiqamətdə maarifləndirmə işinə diqqətin artırılmasının zəruri olduğunu göstərir.

Azərbaycan tolerantlığa görə dünyada seçilən ölkələrin sırasındadır. Lakin ölkəmizin bu uğurundan xoşlanmayanlar son zamanlar məhz bu məsələ üzərindən ölkəmizdə narahatlığa səbəb olacaq oyunlar oynamağa başlayıblar. Təbii ki, dövlətimiz çox güclüdür və xalqımızın təhlükəsizliyinə qarşı atılacaq hər hansı bir hərəkətə icazə verməz. Ancaq dövlətimizin bu mövzu ilə əlaqədar aldığı tədbirlərlə yanaşı, quruluş məqsədi gənclərimizin mənəvi inkişafı və maarifləndirilməsi istiqamətində fəaliyyət göstərmək olan bütün ictimai təşkilatlar da gənclərin radikal cərəyanlara qarşı maarifləndirilməsi işində dövlətimizə yaxından dəstək verməlidir.

Bildiyimiz kimi, hər hansı bir problemin həlli ilk öncə onu doğuran səbəbləri müəyyən etməklə mümkündür. Son zamanlar daha qabarıq şəkildə üzə çıxan bu problemlərin mənbəyini axtardıqda isə bunun Sovet İttifaqının səbəb olduğu mənəvi böhranın günümüzə qədər gəlib çatmasında görərik. Sovet rejimi dövründə mövcud olan materialist-darvinist ideologiyalar uzun müddət təsirini itirmədiyi üçün bu rejimdən sonra gənclərimiz dərin mənəvi boşluğa düşdülər. Düşdükləri bu mənəvi boşluqdan əziyyət çəkən insanlar İslamı öyrənərək bu böhrandan çıxmaq istədiklərində isə seçim baxımından qarşılarında demək olar ki, alternativi olmayan çox güclü və fəal təbliğat metodları olan xurafatçı və radikal cərəyanları görürlər. Bundan sonra din haqqında öyrəndikləri yanlış məlumatlara görə İslamın şiddətə, terrora, zorakılığa izn verdiyi qənaətinə gəlirlər. İslam əxlaqına tamamilə zidd olan bu fikirlərin insanlar tərəfindən qəbul edilməsinin tək səbəbi İslam haqqında məlumatsız olmalarıdır. İslam əxlaqının əsas mənbəyi Qurani-kərimdir. Radikal cərəyanlar, əsasən, İslam əxlaqının tam əksi olan xurafatları din adı altında təbliğ edirlər. Əgər İslam xurafatlarla deyil, əsas mənbədən, yəni Qurani-kərimdən anlaşılan dildə, gözəl və düzgün şəkildə izah edilərsə, cəhalət və xurafat nəticəsində ortaya çıxmış radikal cərəyanlar özlərinə tərəfdar tapa bilməzlər. Radikalizm və xurafata qarşı həqiqi Quran əxlaqının anladılmasını israrla vurğulamağımızın səbəbi çox bəsitdir. Belə ki, İslam adına insanları aldadan radikallara qarşı həqiqi din əxlaqının təbliği bu problemin yeganə həll yoludur. Xurafatçı və radikal cərəyanların hədəfi olan insanlar məhz din əxlaqını, İslamı öyrənmək istəyən insanlardır. Bu insanlara İslam əxlaqı düzgün şəkildə izah edilməzsə, problemləri həll etmək mümkün olmayacaq.

Bununla yanaşı, İslam əxlaqının tam əksi olan xurafatları din adı altında təbliğ edən xurafatçı və radikal cərəyanların əməlləri dünyada İslam dininə qarşı ədalətsiz münasibətin formalaşmasına – islamofobiyaya səbəb olur. Quran əxlaqına əsaslanan həqiqi islami dəyərlər təbliğ edildikdə, bu, həm də onun əsassız hücumlardan qorunmasında, cəmiyyət üçün təhlükəli olan islamofobiya meyillərinin qarşısının alınmasında mühüm rol oynayar.

Yuxarıda da vurğuladığımız kimi, radikalizmə qarşı mübarizənin ən təsirli yolu gənclərimizə İslamın xurafata, cəhalətə və radikalizmə qarşı olması mövzusunda maarifləndirmə işlərinin aparılmasıdır.

Din adı altında xurafatların, radikal fikirlərin təbliği zamanı, əsasən, gənclər hədəfə alındığından maarifləndirmə işi xüsusilə təhsil müəssislərində tələbə və şagirdlər arasında aparılmalıdır. Ali, peşə-ixtisas, orta ixtisas və ümumi təhsil müəssisələrində müvafiq fənlər daxilində də (məsələn, ümumtəhsil məktəblərində tədris olunan «Həyat bilgisi» fənnində) tədris zamanı İslamın sülhü, sevgini, bağışlamağı, yardımsevərliyi, mərhəməti, fikir azadlığını, tolerantlığı, elmi və müasirliyi təşviq etdiyi və həmçinin terroru, şiddəti, məcburiyyəti, zorakılığı isə rədd etdiyi tələbə və şagirdlərə xüsusi vurğulanmalıdır.

Dövlətimizin aidiyyəti qurumları ilə yanaşı, ictimai fəaliyyətlə məşğul olan bütün təşkilatlar da konfranslar, seminarlar, söhbətlər təşkil edərək İslamın sülhü, sevgini, mərhəməti təşviq etdiyini, terrorun, zorakılığın və məcburiyyətin dinimiz tərəfindən qəti olaraq qəbul edilmədiyini gənclərimizə aşılamalıdırlar.

Xüsusilə radio-televiziya, qəzet, jurnal və digər kütləvi informasiya vasitələrinin bu mövzularda maarifləndirici layihələr hazırlaması qısa müddətdə çox gözəl nəticə alınmasına səbəb olacaq vasitələrdir.

Gənclərin Mənəvi İnkişafı İctimai Birliyi təsis edildiyi gündən etibarən davamlı olaraq sülh dini olan İslamın adının radikalizm və terrorizmlə bərabər çəkilməsinə qarşı maarifləndirmə işləri aparır. Bununla da radikal cərəyanların təsir dairəsini azaltmağa cəhd göstərir. Birliyimiz bu istiqamətdə "İslam Terroru Lənətləyir" adlı yüzlərlə gəncin iştirak etdiyi konfranslar təşkil etmiş, mövzu ilə bağlı filmlərin izlənməsini və saytların hazırlanmasını təmin etmişdir.

Birliyimiz digər mövzularda olduğu kimi, bu mövzuda da xalqımıza və dövlətimizə yaxından dəstək verməyə davam edəcək.

Gənclərin Mənəvi İnkişafı İctimai Birliyi

# Elmi-texnoloji Xəbərlər



## Parıldayan dəniz qurdunun sirri B vitaminidir

Şəkildəki görüntü radioaktiv təcrübə və ya parıldayan boya ilə rənglənərək görünən bioloji nümunə deyil. Şəkildəki okeanlarda geniş ərazidə yayılmış bir canlıdan nümunədir. Dəniz borucuqlu qurdu (Chaetopterus) fluoressent işıq kimi parıldamasının səbəbi isə B vitaminidir.

Müəyyən dalğa uzunluğunda yaşıl fluoressent işıq saçan bu qurdlar göründüyündən də "rəngli" canlıdır.

Hasil etdiyi mineral borucuqlardan ev kimi istifadə edən və qurdlardakı kimi çıxıntıları olduğuna görə dəniz borucuqlu qurdu adlanan bu canlıya toxunduqda parlaq mavi rəngdə selik ifraz edir. Bu qurd seliyi "U" formasına salır və bu formadakı selikdən sığınacaq kimi istifadə edir. Bu yolla ehtiyacı olan sığınacaq və ovunu tutmaq üçün kamuflyaj əldə edir.

ABŞ-ın San Dieqo şəhərində yerləşən Kaliforniya Universitetinin Skrips Okeanologiya İnstitutu tərəfindən aparılan yeni tədqiqatda dəniz borucuqlu qurdlara yaşıl parlaqlıq verən amilin B vitamini (riboflavin) olduğu aşkar edilib. Ancaq seliyə parlaq mavi rəng verən amilin nə olduğu hələ məlum deyil.

Tədqiqatın rəhbəri Dmitri Deheyn bu qurdların kimyəvi reaksiyalar ilə ovunu tələyə saldığını, düşmənlərinin isə diqqətini yayındırdığını düşünür.

Bu barədə məlumat Skrips Okeanologiya İnstitutunun rəsmi saytında yerləşdirilmişdir.

## Ağacda qızıl yetişir

"Nature Communications" elmi jurnalında dərc olunan məqalədə elm adamlarının evkalipt yarpaqlarında 8 mikrometr ölçüsündə qızıl zərrəcikləri aşkar etdikləri bildirilib.

Qızılın torpaqdan ağacın kökləri vasitəsi ilə sorulduğu və su ilə yarpaqlara qədər hərəkət etdiyi bildirilib.

Elm adamları tədqiqatlarını qərbi Avstraliyanın Freddo bölgəsində dərinləşdirib. Buradakı evkalipt yarpaqlarında qızılın miqdarının digər bölgələrdəkinə nisbətən 800 dəfə çox olduğu bildirilib.

Elm adamları yarpaqlardan qızıl əldə etməyin çətin olduğunu da vurğulayıblar. Çünki 100 ton evkalipt yarpağından cəmi 8 qram qızıl əldə edilə bilir.

# İlanlar təhlükə altında daha yaxşı görür

İlanlar ətrafda baş verənləri daha yaxşı anlamaq üçün çölə çıxartdıqları dillərindən detektor kimi istifadə edirlər. Elm adamları ilanların görmə qabiliyyətlərini gücləndirmək üçün yeni xüsusiyyətini aşkar ediblər.

İlanlarla bağlı aparılan yeni tədqiqat bir ilan növünün qan dövranını tənzimləyərək görmə qabiliyyətini gücləndirdiyini göstərib.

"Journal of Experimental Biology" jurnalında dərc olunan tədqiqat işinə əsasən, ilanlar təhlükə olduğunu hiss etdikdə gözlərinə gedən qan damarlarını tənzimləyərək görmə qabiliyyətlərini gücləndirirlər.

Tədqiqat ABŞ və Meksikada yaşayan, çəhrayı və qəhvəyi rəngə çalan Masticophis flagellum növü üzərində aparılıb. Bu zəhərsiz ilanın digər ilan və sürünənlər kimi göz qapaqları yoxdur. Ancaq gözün üzərini örtən qoruyucu şəffaf təbəqə var.

Tədqiqatda iştirak edən Kanadanın Vaterloo Universitetindən Kevin van Doorn bu şəffaf təbəqənin altında qan damarı yerləşdiyini müəyyən edib. Bu yolla ilanın zəif görmə qabiliyyətinin daha da zəifləməsinin qarşısı alınır.



Tədqiqatda ilanın təhlükə ilə qarşılaşdıqda qan damarlarındakı qan axınını azaldaraq görmə qabiliyyətini artırdığı müşahidə olunub.

İlan dərisini dəyişdirərkən qan dövranının normal olduğunu bildirən van Doorn, beləcə, dəri dəyişilərkən də hüceyrələrin böyüdüyünü deyir.

Kanadalı elm adamı tədqiqat nəticəsində ilanların sabit deyil, dinamik qan dövranı olduğunu aşkar etdiklərini bildirib.

"Discovery News" saytının xəbərinə əsasən, tədqiqatçılar gələcək müşahidələrdə Masticophis flagellum ilanının bu xüsusiyyətinin digər növlərdə də olub-olmadığını tədqiq edəcəklər.

# İslam Dünyasında



## İngiltərə baş nazirinin köməkçisi: “Həcc hər kəsi birləşdirir”

İngiltərə baş nazirinin köməkçisi və Liberal Demokrat Partiyasının rəhbəri Nik Kleq keçən Qurban bayramına görə ofisində müsəlman icmanın ilə rəsmi görüş keçirib. İngiltərədəki koalisiya hökumətinin kiçik ortağının lideri Nik Kleq “Fatihə” surəsinin oxunması ilə başlanan görüşdə nitq söyləyib. Nitqinə: “Salamun aleykum”, -deyərək başlayan Kleq müsəlman icmanın İngiltərədə bir çox sahəyə mühüm müsbət töhfələri olduğunu ifadə edib. Həcc səfərindən həmişə təsirləndiyini bildirən Kleq: “Hər kəsin ağ geyinməsi və hər kəsin eyni olduğunu anlaması çox gözəldir və bu, bizi birləşdirir”, -deyib.  Kleq sözlərini Qurani-kərimdən bir hissə oxuyaraq tamamlayıb.



## Ankarada Etnoqrafiya Muzeyində saxlanan Bibliya Vatikanı şoka saldı

“İsa çarmıxa çəkilməyib, Pavel fırıldaqçıdır”.

Türkiyədə aşkarlanmış 1500 illik Bibliya Vatikanda ciddi narahatlıq doğurub.

ANS PRESS-in məlumatına görə, Bibliyada Məsih İsanın ilk tələbələrindən biri olmuş və həvari Pavellə birlikdə səyahət etmiş Varnavanın yazdığı İncil var. Kitab 2000-ci ildə aşkarlanıb və Ankaradakı Etnoqrafiya Muzeyində saxlanır.

Dəridən hazırlanmış kitab İsa Məsihin danışdığı arami dialektində yazılıb, səhifələri keçən zaman ərzində qaralıb. Kitabı qiymətləndirən ekspertlər onun gerçək olduğunu bildiriblər.

Kitabla tanış olmuş Tehran ekspertləri bildirirlər ki, mətnlərə görə, İsa çarmıxa çəkilməyib, Tanrının oğlu olmayıb, amma peyğəmbər olub və Pavel fırıldaqçıdır. Kitabda həmçinin bildirilir ki, İsa diri-diri göyə qalxıb. O, çarmıxa çəkilməyib və onun yerinə İuda İskariotu çarmıxa çəkiblər. Həmçinin mətnlərdə İsadan sonra sonuncu peyğəmbərin gələcəyi də vurğulanıb.

Vatikan kitab barədə ciddi narahatlıq bildirib və Türkiyə hakimiyyətindən katolik kilsəsinin ekspertləri ilə birlikdə kitabın içindəkiləri katolik kilsəsində qiymətləndirməyi xahiş edib. Bildirilir ki, 325-ci ildə Nikeya kilsə məclisində katolik ekspertlər İncilləri araşdıraraq onların bəzi nümunələrini, o cümlədən Varnavanın İncilini məhv ediblər.

# Keçən Ay

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2013-cü ildə dini fəaliyyət sahəsində həyata keçirilmiş tədbirlərin yekunu ilə bağlı iclas keçirilmişdir

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2013-cü ildə dini fəaliyyət sahəsində həyata keçirilmiş tədbirlərin yekunu ilə bağlı iclas keçirilmişdir.2014-cü il üçün DQİDK-nın əsas fəaliyyət istiqamətləri barədə məlumat verən Elşad İskəndərov qeyd etmişdir ki, Dövlət Komitəsi əsasən din-dövlət münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn fəaliyyətin təkmilləşdirilməsi, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, dini icmalar və cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində maarifləndirmə işinin gücləndirilməsi, tolerantlıq ənənələrinin gücləndirilməsi eləcə də daxildə və xaricdə təbliğatı, milli-mənəvi dəyərlərin gücləndirilməsi və inkişaf etdirilməsi, dini icmaların cəmiyyətə inteqrasiyasının təmin edilməsi məsələlərinə xüsusi önəm verəcək.

E.İskəndərov tədbirdə həmçinin DQİDK-nın loqosunun təsis edildiyini bildirib. Tədbirdə həmin loqonun təqdimatı da keçirilmişdir. Loqo səkkizguşəli ulduz formasındadır. Ulduzun içində Azərbaycan Respublikasının Dövlət gerbinin elementi olan dua şəklində açılmış iki əllə əhatə olunmuş alov şəkli yer alıb. Həmçinin səkkiz guşə ni birləşdirən elementlər Azərbaycanda dini tolerantlığı və dinlər arasındakı münasibətlərin çoxşaxəliliyini göstərir.

Qeyd edək ki, iclasda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxulislam Allahşükür Paşazadə, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşein və digər dini icma rəhbərləri Dövlət Komitəsinin ötən il gördüyü işləri yüksək qiymətləndirmişlər. Həmçinin, bildirilib ki, Dövlət Komitəsinin fəaliyyəti nəticəsində Azərbaycanda dövlət-din münasibətləri sahəsində ciddi irəliləyişlər əldə edilmişdir.

## Almaniyanın prezidenti Qauk Münsterdəki İslam fakültəsinə baş çəkib

Almaniyanın prezidenti Yoaxim Qauk Münsterdəki İslam ilahiyyatı mərkəzinə baş çəkib. Qauk görüşdə söylədiyi nitqdə alman universitetlərində İslam ilahiyyatı fakültələrinin açılmasını "Almaniyanın yaxın tarixi üçün mühüm addım" sözləri ilə dəyərləndirib.

Almaniyada dörd milyon müsəlmanın yaşadığını vurğulayan Qauk: "Almaniya hamımızın ortaq vətənidir", -deyib. Qauk İslam İlahiyyat Mərkəzinin rəhbəri Muhanat Xurşidin müdafiə etdiyi tezislərə görə müsəlmanlar arasında müzakirələr olduğuna da diqqət çəkib. "Müzakirələrin olması normaldır və demokratiya tərəfdarı olan cəmiyyətdə arzuolunandır", -deyən prezident müsəlmanların sayının artması ilə cəmiyyətin dəyişdiyini bildirib.



Düşünən İnsan, Mart 2014



# İNSAN BƏDƏNİ ROBOT OLSAYDI...



**Həyatımız boyu bədənimizlə görür, eşidir, nəfəs alır, yeriyir və qaçırıq. Bədənimiz sümükləri, əzələləri, damarları, daxili orqanları ilə birlikdə mükəmməl nizama malikdir. Bu nizamın təfərrüatını təhlil etdikdə isə daha heyranedici həqiqətlə qarşılaşırıq: insan bədəni yer üzündəki ən kompleks sistemlərdən təşkil olunmuş canlı "maşın"dır. Bu maşının içində ən üstün texnologiyalardan da üstün texnologiyaya malik cihazlar, Allah`ın izni ilə hərəkət edən, öz sahəsində ixtisaslaşmış fərdlər, tam təchizatlı əsgərlər və başqa sistemlər mövcuddur. Bədənin içindəki sistemlərin bu nizamını və bütün üstün sistemləri yaradan göylərin, yerin və bunların arasındakıların hakimi olan uca Allah'dır.**



*Ey insan! Səni kərim olan Rəbbinə qarşı aldadan nədir? O Rəbbin ki, səni (yoxdan) yaratdı, düzəldib qaydaya saldı.(İnfitar surəsi, 6-7)*

## Beyin/Kompyuter

Sinir hüceyrələrinin hər biri məlumat ötürülməsi üçün xüsusi vahidlərdən təşkil olunub. Beyin təkmil kompyuterdəki mikroprosessorun məlumat ötürməsini təmin edən 4.5 milyon tranzistorun işini təkbaşına görə bilir. Bu rəqəm beyində elektrik mübadiləsi aparan 10 milyard sinir hüceyrəsi ilə müqayisə edildikdə çox kiçikdir. Üstəlik, beyin dad və qoxu impulslarını qavraya bilir, lakin bunu edən qurğu hələ mövcud deyil.



## Böyrəklər/təmizləmə sistemləri

Nefron adlanan bir milyona yaxın mini-filtr sayəsində insan böyrəyi gündə 140 litr qanı süzür. Dəqiqədə isə təqribən 1 desilitr (bir litrin onda biri) qədər qan 80 il boyu fasiləsiz süzülür. Sənaye tullantıları üçün istifadə edilən təmizləmə cihazları böyrəklərlə müqayisədə daha çox iş görürlər. Lakin ömürləri böyrəklərlə müqayisə edilməyəcək qədər qısadır. Üstəlik, filtrdən keçirdikləri maddələrin quruluşu qandan da sadədir. Böyrək hər cür təmizləmə cihazından daha kompleks və səmərəlidir.

Orqanizmimiz 200 milyarda yaxın limfosit tərəfindən qorunur. Əsgərlər kimi onların da kəşfiyyat sistemi, öldürücü döyüş silahları və xüsusi döyüş taktikaları var. Ancaq dünyadakı heç bir ordu immun sistemi qədər dəqiq, qüsursuz deyil.

## Hormonlar/poçt-rabitə

Bədəndə hər şey rabitəlidir. Bir çox məlumat böyük molekullardan ibarət hormonlardan təşkil olunub. Hormonların daşıdığı məlumat zərfinin üstündə ünvan yoxdur. Hormonlar qan dövranında pərakəndə halda gəzirlər. Ancaq məktub yenə də yerinə çatdırılır. Çünki sənədi alacaq orqanlar bu məktubları qəbul edən xüsusi reseptorlara malikdirlər.



## Əzələ və sümük/kondisioner

Əzələlərin hərəkəti soyuq havada bədənin isinməsinə kömək edir. Əzələlər bu yolla bədən temperaturunun 90%-ni təmin edirlər. Tərləmə isə həddindən artıq isinmə olduqda ideal sərinləmə mexanizmidir. Bir-birini tənzimləyən bu iki sistem hər şəraitdə bədən temperaturunu sabit saxlayır. Bu sistem hər hansı kondisionerdən daha sürətlə işləyir və daha yaxşı nəticə əldə olunur.

Düşünən İnsan, Mart 2014



## Ürək/pompa sistemləri

Hələ ana bətnində ikən döyünməyə başlayan ürək dəqiqədə 70-200 ritmlə ömür boyu fasiləsiz işləyir. Hər döyüntü arasında ən çox yarım saniyə dincəlir. Bir gün ərzində təqribən 10.000 dəfə döyünür. 60 kq çəkidəki insanın ürəyi dincəldikdə təqribən 6.5 litr qan vurur. Ürək ömür boyu həcmi 300 m3 olan 500 hovuzu dolduracaq qədər qan vurur. Süni pompa sistemləri isə qulluq edilmədiyi təqdirdə, bu qədər uzun müddət səmərəli işləyə bilməz.

## Qol/qaldırıcı kran



Qol qaldırıcı kran kimi işləyir. Özül kimi dirsəkdən istifadə edir və üzərindəki əzələləri yığıb-açaraq hərəkəti təmin edir. Kranlar da eyni sistemlə işləyir. Ancaq kran qaldırdığı çəkidən asılı olmayaraq, eyni gücü sərf edir. Qol əzələləri isə gərilmə miqdarını dəyişən çəkiyə görə tənzimləyə bilir.

## Göz/fotoaparat

Gözün tor qişası işığa çox həssasdır. İşığı hiss edən müxtəlif tipli hüceyrələr görmə sahəsindəki ən yaxşı görüntünü tutacaq şəkildə düzülüblər. Bundan əlavə, göz avtomatik fokuslama edir və xarici mühitdəki işıq miqdarına görə həssaslığını tənzimləyir. Bu cür xüsusiyyətlərinə görə göz dünyadakı bütün kamera və fotoaparatlardan üstündür.

## Qulaq/Hİ-Fİ səs sistemi



İnsanın daxili qulağındakı kirpiyəbənzər hüceyrələr mikrofondakı kimi havadakı titrəyişləri elektrik impulslarına çevirir. Qulaq ancaq 20-20000 Hs tezlikdəki səsləri hiss edir. Bu interval insan üçün seçilmiş ideal ölçüdür. Əgər insanın eşitmə intervalı daha geniş olsaydı, onda yerdə gəzən qarışqanın ayaq səslərini və ya atmosferdəki yüksək tezlikli səs dalğalarını da eşidərdik. Daimi səs-küylü vəziyyət isə gün ərzində insanı çox narahat edərdi.

## Hüceyrə/motor

Hüceyrə yanacağı çox qənaətlə sərf edən mühərrikdir. Yanacaq kimi ATF adlanan kiçik molekullardan istifadə edir. Bütün mühərriklərdən fərqli olaraq hüceyrə ATF molekullarından çox qənaətlə və ən səmərəli şəkildə istifadə edir. Bundan əlavə, hüceyrə bütün texnoloji cihazlardan fərqli olaraq bir çox mürəkkəb prosesi eyni anda həyata keçirir.



# HƏŞƏRATLARIN GÜCLÜ QANADLARI

*Bütün həşəratların qanadlarında damarlar var. Həşərat böyüdükdə damarlar qan daşıyır. Lakin daha sonra damarlar sərtləşir və həşəratın qanadlarını da çərpələngin çərçivəsi kimi sərtləşdirir. Bir çox həşərat qanadlarını həddindən artıq sürətlə çırpır. İnsan gözü həşərat qanadlarının hərəkət sürətini müşahidə edə bilmir. Məsələn, eşşək arıları, bal arıları və milçəklər bir göz qırpımı qədər qısa olan bir saniyədə təqribən 200 dəfə qanad çırpırlar. Nəm milçəkləri (Forcipomyia) kimi həşəratlar isə bir saniyədə 1000 dəfə qanad çırpır. Əgər qanadlardakı damarlar olmasaydı, həşəratların qanadları parçalanaraq qopardı. Göründüyü kimi, həşərat qanadlarında çox xüsusi, bənzərsiz dizayn və ağıl var. Bu ağılın sahibi də, şübhəsiz ki, hər şeyi ən incə təfərrüatına qədər planlaşdıran Allah'dır.*



Düşünən İnsan, Mart 2014



# Allah`ın Quranda bildirdiyi nümunəvi müsəlman xarakterinə necə yiyələnmək olar?

Bəzi insanlar düşdükləri mühitdən asılı olaraq tamamilə fərqli xarakterlər nümayiş etdirə bilirlər. Əyləncəli məkanlarda şən görünən bu insanlar ciddi vəziyyətlərdə təmkinli davranmağa çalışır, mənfəət güddükləri məqamlarda isə istənilən xarakterə bürünürlər. Evlərində, yad gözlərdən uzaq yerlərdə isə bu insanların əsl siması üzə çıxır. "Hər mühitin insanı" adını daşıyan bu xarakter pozuntusu cəmiyyət tərəfindən bacarıq və gözəl xüsusiyyət kimi qəbul edilir. Lakin bu davranış təhlükəli insan xarakterinin formalaşmasında bilavasitə rol oynayır. Belə ki, bu insanlar şəraitdən asılı olaraq ani xarakter dəyişdirir, gözləmədiyimiz hərəkətlər nümayiş etdirirlər. Məsələn, mülayim görünən bir insan mənfəətləri ilə ziddiyyət təşkil edən məqamlarda qəflətən əsəbiləşib özündən çıxır və ya yetkin bir insan adi hadisə qarşısında uşaq kimi davranmağa başlayır.

Bu insanların şəraitdən asılı olaraq müxtəlif xarakterlərə bürünmələrinin səbəbi isə bütləşdirdikləri amillərin həddən artıq çox olmasıdır. Öz aləmlərində hər kəsi siniflərə ayırır və insanlarla bu siniflərə uyğun rəftar edirlər. Uca Allah bu insanları Quranda belə təsvir edir:

***Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allah`a məxsusdur, lakin onların əksəriyyəti bilmir. (Zumər surəsi, 29)***

Eyni zamanda, sonsuz mərhəmətli Rəbbimiz Quranda Onun rizasını qazanmağa layiq müsəlman xarakterini də bizə bildirir:

***Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti***





***kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, (Allah'a) baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allah'ı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır. (Əhzab surəsi, 35)***

Yuxarıdakı ayədən də aydın olur ki, uca Allah`ın bəyəndiyi tək bir müsəlman xarakteri mövcuddur. Mömin bir insanda bir-birindən fərqli qadın və kişi xüsusiyyətləri, cəmiyyətin insanlara yüklədiyi müxtəlif rollar, vəzifə, mövqe, peşə və ya maddi vəziyyətə əsasən formalaşan sinfi təbəqələr və bu sinif və vəzifələrin qəlibləşmiş xüsusiyyətləri təzahür etmir. Hər an təqvalı olmaq, heç bir hadisə və ya şəxs qarşısında Allah`ın əmr və qadağalarından kənara çıxmamaq isə Quranda bəhsi keçən gözəl əxlaq nümunələrindəndir.

Uca Allah`ın Quranda bildirdiyi ideal müsəlman xarakterinə yiyələnmək yollarına nəzər yetirək:

## Səmimiyyət

Mömin xarakterini formalaşdıran ən mühüm xüsusiyyətlərdən biri səmimiyyətdir. Çünki səmimi mömin istənilən şəraitdə uca Allah`ın bəyəndiyi əxlaqı nümayiş etdirir, heç kimin görmədiyi və bilmədiyi anlarda belə nəfsinə qarşı mübarizə apararaq daima Rəbbimizin qadağaları çərçivəsində hərəkət edir. Hz. Yusifin onu arzulayan və həbs etdirməklə hədələyən qadın qarşısında Rəbbinə yönələrək etdiyi dua möminin bu əxlaqına ən gözəl nümunələrdən biridir:

***(Yusif) dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram. (Yusif surəsi, 33)***



Düşünən İnsan, Mart 2014



sonsuz güc sahibi Rəbbimiz və yaratdıqları barədə düşünməyə dəvət edirlər. Söhbət edərkən Allah`ı xatırladan hikmətli sözlər seçir, ələ salmaq və dolaşdırmaq məqsədilə verilən sualları Qurandan nümunələr gətirərək ağılla cavablandırırlar.

## Bütün söhbətlərdə uca Allah`ı xatırlamaq və xatırlatmaq:

Səmimi iman gətirən hər bir insan uca Allah`ın ***"Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et..." (Nəhl surəsi, 125)*** əmrini yerinə yetirməklə, haqq dini təbliğ etməklə, Qurana əsaslanan nəsihətlər verməklə, yaxşılığı əmr edib pislikdən çəkindirməklə və Allah`ın ayələrini xatırlatmaqla məsuldur. Quranı bütünlükdə həyatına rəhbər edən möminlər çətin şəraitlərdə də, güc və vəzifə baxımından özlərindən qat-qat üstün olan insanlarla qarşılaşdıqlarında da Allah`ın əmr və qadağalarından əsla kənara çıxmır, hər söz və hərəkətlərindən məsul olduqlarını bir an belə qulaq ardına vurmurlar. Hikmətsiz və boş sözlərdən üz döndərir, qarşılarındakı insanları da Qurana tabe olmağın vacibliyi haqda xəbərdar edirlər. Hər hadisədə bütün gücün yalnız uca Allah`a məxsus olduğunu xatırladır, düşdükləri hər mühitdə insanları

## Ən çətin anlarda da uca Allah`a təvəkkül etmək

Allah`ın ***"Həqiqətən də: "Rəbbimiz Allah`dır!" – deyib sonra düz yol tutan kəslərə..." (Fussilət surəsi, 30)*** ayəsində bildirdiyi kimi, möminlərin Allah`a olan inam və təvəkkülləri çətin anlarda belə sarsılmaz. Bu gözəl əxlaqa yiyələnən möminlər iman gətirməyən insanlar kimi tez-tez üslublarını dəyişdirmir, fikrindən tez dönərək geri addım atmır, qeyri-sabit xarakter nümayiş etdirmirlər. Çətin anlarda möminlərin Allah`a olan təvəkküllərinə ən gözəl nümunə peyğəmbərimizin (s.ə.v) dostları ilə mağaraya sığındıqları zaman: ***"...Qəm yemə, Allah bizimlədir!..." (Tövbə surəsi, 40)*** - deməsidir.

## Bütün nemətləri hər an Allah`ın bəxş etdiyini xatırlayıb şükür etmək

Möminlərin Quranda xəbər verilən üstün xüsusiyyətlərindən biri də daima şükür etmələridir.

Möminlər həm onlara bəxş edilən imkanlar, həm də gördükləri gözəlliklər qarşısında hər an bunları yaradanın uca Allah olduğunu xatırlayır və yalnız Ona şükür edirlər. Quranda hz. Yusifin nümunəvi rəftarı buna ən gözəl misallardan biridir.



Hz. Yusif başına gələn bütün hadisələri atasına nəql edərək hər şeyin uca Allah`ın təyin etdiyi qədər çərçivəsində baş verdiyini bildirir və bütün yaşadıqları üçün Allah`a şükür edir:

***...O dedi: "Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O, mənə lütf etdi. O, məni zindandan çıxartdı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan (yanıma) gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, biləndir, müdrikdir". (Yusif surəsi, 100)***

## Təvazökar olmaq

Möminə xas xüsusiyyətlərdən biri də təvazökar olmaq, sahib olduqları nemətlərə görə təkəbbür göstərməməkdir. Möminlərin bu gözəl əxlaqını Allah bir ayəsində belə bildirir:

***Bu, sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də verilənə sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz! (Hədid surəsi, 23)***

Quranda təvazökar möminlərə ən gözəl örnəklərdən biri hz. Süleymandır. Hz. Süleyman zənginliyi ilə təkəbbürlənən Qarundan tamamilə fərqli əxlaqa sahibdir. Quranın ***"...Mən gözəlliyi Rəbbimin zikrindən dolayı sevirəm..." (Sad surəsi, 32)*** ayəsində bildirildiyi kimi, hz. Süleyman zənginliyi, sahib olduğu ehtişamlı ne-mətləri yalnız Allah`ı xatırlamaq, Onu zikr etmək və Onun yolunda sərf etmək üçün istəmişdir.

## Qınayanın qınamasından qorxmamaq

***...Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyət verici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bu, əzmkarlıq (tələb edən) əməllərdəndir. (Ali İmran surəsi, 186)***

Yuxarıdakı ayədə də bildirildiyi kimi, möminlər mənəvi təzyiqlərə, layiq olmadıqları rəftarlara, sərt reaksiyalara məruz qalır, ələ salınıb qınanır, əziyyət verici sözlər eşidir, hətta fiziki hücumlarla belə üzləşirlər. Lakin bütün bunların qarşısında möminlər səbirli, cəsur və iradəli əxlaq göstərirlər. Əllərini çarpaz kəsməklə hədələdiyi halda, firondan çəkinməyən sehrbazların və atəşə atılmaqdan qətiyyən qorxmayan hz. İbrahimin cəsur davranışları Quranda bütün möminlərə nümunə göstərilmişdir.

## Etibarlı olmaları

Möminlər Allah`ın hər an, hər yerdə onlarla birlikdə olduğunu və qiyamət günü ağızlarından çıxan bütün sözlərindən sorğu-sual olunacaqlarını



bildikləri üçün yalan danışmaz (Əhzab surəsi, 70), yaxınları əleyhinə olsa belə, doğrunu deməkdən (Nisa surəsi, 135) və səhv yolda olanları ən gözəl şəkildə xəbərdar etməkdən çəkinməz, edə bilməyəcəkləri şeylər üçün söz verməzlər (Saff surəsi, 2-3). Uca Allah möminlərin bu xüsusiyyətini ***"O kəslər ki, Allah'a verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar"*** (Rəd surəsi, 20) ayəsində xəbər verir. Möminlərin Allah qorxusundan qaynaqlanan Quran hökmlərinə bağlılıqları hər sözlərini etibarlı edir.

## İbadətlərinə məsuliyyətlə yanaşmaları

***O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?! (Məryəm surəsi, 65)***

Ayədən aydın olur ki, möminlərin ən nəzərə çarpan xüsusiyyətlərindən biri də ibadətlərinə çox həssas və məsuliyyətli yanaşmalarıdır. Hər an Allah rizasını güdən möminlər namaz, oruc, həcc, zəkat kimi fərz hökmləri ilə yanaşı, bütün fəaliyyətlərinin, söhbət və davranışlarının da ibadət olduğunu bilirlər. Buna görə də, əsəbləri cilovlamağın, gözəl sözlü olmağın, insanlara haqq dini təbliğ etməyin, zənnə uymamağın və höcətləşməməyin də namaz qədər fərz ibadət olduğunu bilir və hər an hər hərəkətində bu ibadətlərə məsuliyyətlə yanaşırlar.

## Diqqətin və şüurun açıq olması

Həyatının hər anının Allah`ın nəzarəti altında olduğunu dərk edən mömin daima açıq şüurlu və diqqətli olur. Quranda bildirilən əmr və qadağalara həssaslıqla əməl edir, günah əməllərdən uzaq olmağa çalışdığı və hər an əcir qazanmaq fürsətini güddüyü üçün, əlbəttə ki, daima şüuru açıq olur. Bunun nəticəsində cəld və düzgün qiymətləndirmə bacarığına yiyələnir, hadisələrə açıq və kəskin şüurla yanaşır və ağlını daima İslamın xeyrinə həll yolları tapmaq üçün istifadə edir.

## Şən və gümrah olmaq

Möminlər Allah`ın varlığına şəksiz iman gətirdikləri və hər an Onun rizasını qazanmağa çalışdıqları üçün Allah`a duyduqları dərin hörmət və sevgi səbəbi ilə hər zaman gümrah və şən əhval-ruhiyyədə olurlar. Bu xüsusiyyət möminlərin baxışlarına dərin məna, yaşlarından asılı olmayaraq, bədənlərinə daha gənc görünüş və üzlərinə nur



bəxş edir. Əslində, xarici görünüşlərindəki bu gümrahlığın səbəbi *"...Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır" (Rad surəsi, 28)* ayəsində də xəbər verildiyi kimi, Allah`ı zikr etməyin və Onun rizasını qazanmaq üçün şövq və həyəcanla yaşamağın ruhda yaratdığı müsbət hisslərlə bədənin uyğunlaşmasıdır.

## Məsuliyyətli olmaq

Möminlər uşaq kimi davranmaq, sərt olmaq, saflıq siması altında gizlənmək, özünü anlamazlığa vurmaq, boş söz və işlərlə məşğul olmaq, qısqanmaq, həsəd aparmaq kimi pis əxlaq xüsusiyyətlərdən həmişə çəkinirlər. Çünki uca Allah`ın hər mömin üçün fərz qıldığı böyük məsuliyyətin fərqindədirlər. Allah bu məsuliyyəti belə bildirir:

***Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)***

## Bütün müsəlmanların eyni əxlaqı nümayiş etdirməsinin səbəbi yalnız Allah rizasına uyğun davranmalarıdır

***Möminlərin içərisində Allah`a etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də gözləyir. Onlar (əhdlərini) əsla dəyişdirməyiblər. (Əhzab surəsi, 23)***

Möminlər Rəbbimizin "Salam" (əmin-amanlıq) isminin ən çox təcəlli etdiyi insanlardır. Uca Allah`ın hər an onları izlədiyini və axirətdə hər hərəkətlərindən sorğu-sual olunacaqlarını bilən möminlər Onun rizasını qazanmaq üçün Quranın müxtəlif ayələrində misallarla təsvir edilən müsəlman xarakterini mənimsəməyə can atırlar. Bir ayədə nicat tapanların xüsusiyyətləri belə bildirilir:

***İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cəhd edənlərin Allah dərgahında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır. (Tövbə surəsi, 20)***

***O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?! (Məryəm surəsi, 65)***



*Xocalı soyqırımı — 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımdır.*

*Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir.Bu soyqırım zamanı Azərbaycan xalqı yüzlərlə şəhid vermişdir.*

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.*

*Bu hadisə Azərbaycanda və qardaş Türkiyədə «Xocalı qətliamı», «Xocalı soyqırımı» kimi anılır.*



# XOCALI FACİƏSİ

## 26 FEVRAL 1992

















Düşünən İnsan, Mart 2014

# GÖZLƏRİN QORUNMASINDA KİRPİKLƏRİMİZİN ROLU

*• Kirpiklər gözlərimizi necə qoruyur?*
*• Allah kirpiklərə hansı funksiyaları verib?*

Gözlər bədənimizin xarici dünyaya açılan pəncərəsidir. Bu pəncərələrin qorunması xüsusi sistemlə tənzimlənir. Göz qapaqları mükəmməl şəkildə işləyən sistemin ən əsas hissələrindəndir. Kirpiklər də bu möhtəşəm qoruma sisteminin bir hissəsi və insanın üzünü gözəlləşdirən estetik formalardır.

Göz çox kompleks quruluşa və xüsusi funksiyaya malik olmasına baxmayaraq, bədənimizdə kiçik bir yer tutur. Eynilə qiymətli daşın qutusunda saxlanması kimi başımızda xarici amillərdən qorunacaq şəkildə saxlanılır. Həyati əhəmiyyətli funksiyaya malik gözlərimiz üstün yaradılışla qorunur. Göz estetik görünüşlə qorunur. Gözü ətrafındakı bərk, zirehli qabıq da qoruya bilərdi. Ancaq gözün ətrafının sümüklü quruluşu, göz qapaqları, qaşlar və kirpiklər çox estetik və simmetrik görüntü əmələ gətirirlər.

## Kirpiklərin qoruma funksiyası

Göz qapağının kənarlarından çıxan kirpiklər gözə estetik gözəllik və ifadə qatmaqla yanaşı, onu tozdan və yad maddələrdən qoruyurlar. Kirpiklər qırıldıqda və ya kəsildikdə yenidən uzanırlar. Uzanma prosesi kirpik əvvəlki uzunluğuna çatana qədər davam edir. Bir kirpik 2-3 aya uzanır.

İnsan kirpikləri eynilə pişiklərin bığları kimi toxunmaya çox həssasdır. Ona görə də toz və ya başqa zərərli maddə gözlə təmas etdikdə kirpiklər reflektiv olaraq bağlanaraq gözü qoruyurlar. Bu, Allah`ın yaratmasındakı bənzərsiz nümunələrdən biridir. Allah bir ayədə yaradılışdakı qüsursuzluğu belə xəbər verir:

***O, yaradan, yoxdan var edən, surət verən Allah`dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)***

## Kirpiklərimizin qövsvari forması

Kirpiklər yumşaq və yuxarıya doğru azacıq qıvrımdır. Bu forma həm yararlı, həmdə estetikdir. Meybom vəzlərinin ifraz etdiyi yağla kirpiklər yağlanaraq qövsvari elastik quruluş qazanırlar. Əgər kirpiklər yağlanmasaydı, çox sərt olar və hər dəfə gözümüzü qırpdıqda narahatlıq hissi meydana gələrdi.

Gözümüz üçün böyük əhəmiyyət daşıyan göz yaşının da kirpiklərin qövsvari quruluşunda rolu var. Göz yaşı 3 təbəqədən ibarətdir. Ən üstdə yağlı lipid tə-bəqəsi, ortada lakrimal vəzlərin ifraz etdiyi



maye təbəqəsi və altda musin təbəqəsi yerləşir. Bu təbəqələrdən ən üstdə yerləşən lipid təbəqəsi həm selikli qişanın (gözün üst təbəqəsini yağlayan toxuma) üstündəki təbəqənin nəmlənməsini, həm də kirpiklərin qövsvari forma almasını təmin edən təbəqədir. Bu təbəqələr kirpiklərin tük kisəciklərinə açılan yağ vəzləri tərəfindən ifraz olunurlar.

## Kirpiklərinizdə kiçik canlıların yaşadığını bilirdinizmi?

Kirpiklərimizdə demodeks adlı gözlə görünməyən kiçik canlılar yaşayır. Bu canlıların müəyyən xüsusiyyətləri var:

Demodex folliculorum, yaxud demodeks adlanan bu canlı 0.4 mm uzunluğunda, dəri məsamələrində, saçlarda, burunda, çənədə və kirpiklərimizin köklərində yaşayan kiçik gənədir (ancaq mikroskop altında görünən mikrocanlı).

Demodekslərin bir neçəsi bir kirpik kökündə toplaşdıqda infeksiya törədirlər.

Bu gənələr ölü dəri hüceyrələri və gözün ifrazatı ilə qidalanır. Bir kirpik kisəsində 25 demodeks yumurtası olur. Bu gənələr böyüdükdə kisədən çıxır və yumurta qoymaq üçün yeni kirpik kisəsi tapırlar. Bu proses 14-18 gün davam edir. Demodekslərin bədəni tük kisəciklərinə yapışmalarını təmin edən pulcuqlarla örtülüdür.

Demodekslər bir kirpik kisəsində toplandıqda zərərli olurlar.

Bəzi demodeks növləri göz yaşı ifrazatının pozulması xəstəliklərinə səbəb olurlar. Çünki bu gənələr göz yaşı ifraz edən hüceyrə vəzlərini (meybom vəzlərini) yeyirlər.

Blefarit xəstəliyi bu gənələrin əmələ gətirdiyi narahatlıq və yanma nəticəsində törəyir. Bu xəstəlikdən kirpiklər tökülür.

Gözlərin ən ideal yerdə, sim-metrik yerləşməsi də estetikaya uyğundur. İki göz arasındakı məsafə təqribən bir gözün uzunluğuna bərabərdir. Bu məsafə pozulduqda, yəni gözlərin arası daha geniş və ya dar olduqda üzün bütün ifadəsi pozulur.

Göz bütün xüsusiyyətləri ilə insanın Allah tərəfindən yaradıldığını sübut edən dəlildir. Ayədə belə buyurulur:

***De: "Mənə bir göstərin görüm, Allah`dan başqa ibadət etdikləriniz yerdən nəyi yaradıblar? Yoxsa onların göylərdə bir şərikliyi var? Yaxud onlara bir kitab vermişik və oradakı bir dəlilə istinad edirlər?! Xeyr, o zalımlar bir-birinə ancaq yalan vəd verirlər. (Fatir surəsi, 40)***

## Gözün qorunması uca Rəbbimizin yaratmasına heyranlığımızı artırır

Göz bütün orqanoidləri ilə birlikdə bir

Düşünən İnsan, Mart 2014

anda, qüsursuz yaradılıb. Məsələn, təkcə kirpiklərimiz olsaydı, ancaq onların qıvrılmasını təmin edən meybom vəzləri olmasaydı, gözlərimizi açıb-yummağımız çətinləşər və bu da gözlərimizi qısa müddətdə yararsız hala salardı. Ona görə də estetika ünsürü və bəzək kimi görünən kirpiklərimiz, əslində, göz üçün böyük əhəmiyyət daşıyır.

Gözü təşkil edən hər orqanoidin qüsursuz yaradılışı Allah`ın üstün yaratma sənətinə nümunədir. İnsan doğulduğu andan heç bir əmək sərf etmədən sahib olduğu bu nemətlər üçün Allah`a hər an şükür etməlidir. Rəbbimizin qulları üzərindəki rəhməti ayələrdə belə bildirilir:

***Əgər Allah`ın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm¬¬lidir. (Nəhl surəsi, 18)***

***De:"Sizi yaradan, sizə qulaq, göz və ürək verən Odur. Necə də az şükür edirsiniz!" (Mülk surəsi, 23)***

İnsan gözü kimi Allah digər canlıların gözlərində də ehtiyaclarına görə möhtəşəm quruluş yaradıb. Buna ən bariz nümunə dəvənin göz quruluşudur.

***De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allah`dır!" De: "Belə olduqda, Onu qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilənlərimi özünüzə dost edirsiniz?!" De: "Heç korla görən və ya zülmətlə nur eyni ola bilərmi?! Yoxsa onlar Allah`a Onun yaratdığı kimi yaradan şəriklər qərar verdilər və onların nəzərincə bu yaratma bir-birinə bənzər göründü?!" De: "Allah hər şeyin xaliqidir. O, birdir, qəhr edəndir!" (Rəd surəsi, 16)***

## Dəvələrin kirpiklərindəki maraqlı qoruma sistemi

Dəvəni xüsusi canlı edən ən ağır şəraitə belə tab gətirən bədən quruluşudur. Məsələn, dəvənin kirpikləri xüsusi yaradılışa malikdir. Güclü qum fırtınaları da dəvənin gözlərinə zərər vermir. Çünki kirpiklər bir-birinin içinə keçən quruluşdadır və təhlükə anında avtomatik bağlanırlar. Beləliklə, heyvanın gözünə kiçik bir toz zərrəciyi də girə bilmir.

Şübhəsiz ki, bütün varlıqlar xüsusiyyətləri ilə birlikdə onları yaradan Allah`ın sonsuz gücünü və elmini göstərir. Qurandakı bir çox ayədə bu həqiqət bildirilir, Allah`ın hər yaratdığının bir ayə, yəni dəlil və ibrət olduğu xəbər verilir. Dəvənin yaradılışındakı təfərrüatlara Quranda ***"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır?" (Ğaşiyə surəsi, 17)*** ayəsi ilə diqqət çəkilir.



Əgər Allah`ın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir.

(Nəhl surəsi, 18)

# XOŞBƏXTLİK İMANLA OLUR

*İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar cənnət bağçalarında şadlıq içində olacaqlar.*
*(Rum surəsi, 15)*





Ətrafınızda sıxıntılı üz ifadəsi olan bir çox insan var, elə deyilmi? Bəs tanışlarınızdan daima şikayətlənən, ən kiçik çatışmazlıq olduqda hirslənən insanların sayı getdikcə artırmı? Sosial şəbəkələrdəki dostlarınız səhifələrində daima sıxıntılı olduqlarına dair paylaşmalar edirlərmi? İzləyicilərinə "hirsimdən boğuluram", "bəsdir artıq", "səbrim daşır" mesajları göndərirlərmi? Bu, həmin insanların ya iman gətirmədiklərinə, ya da imanda tərəddüd etdiklərinə görə başlarına gəlir. İmanın insana qazandırdığı nemətləri dərk etməyən və ya heç düşünməyən bu insanlar üçün dünyada ancaq sıxıntılı həyat var.

Uca Rəbbimiz Allah bu insanları "Yunis" surəsinin 7-ci ayəsində "dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar" şəklində təsvir edir. Bu insanların yeganə məqsədi dünya həyatında bir az da yaşamaq, bir az da dünyadan faydalanmaqdır. Halbuki, ancaq dünya həyatını seçən, axirətdən xəbərsiz olan bu insanlar imanın onlara qazandıracağı nemətlərdən bəzən bilərək, bəzən də bilməyərək uzaq qalıblar. Yaşadıqları soyuq dünyanın, sevgi nöqsanlığının, sıxıntıların və digər ruhi və fiziki xəstəliklərinin əsl səbəbinin iman çatışmazlığı olduğunu bəlkə də heç düşünməyiblər. Halbuki, bu soyuq, ruhsuz həyatın dəyişməsi çox asandır, bunun üçün insanın dünyanın yaradılma məqsədini düşünməsi kifayətdir.



## İman insan üçün sevinc mənbəyidir

İman gətirməyən insanlar xoşbəxt olmaq üçün səbəblər axtarır, bəziləri var-dövlətlə, bəziləri gözəlliklə, yaxud gəncliklə, bəziləri məşhur olmaqla və ya nailiyyətlər qazanaraq xoşbəxt olacağını zənn edir. Dünyadakı hər şeyi səthi dəyərləndirən, sadəcə dünyadan zövq almaq istəyən bu insanlar əsla həqiqi mənada xoşbəxt ola bilməzlər. Çünki onların sevinc hissi tamamilə müvəqqəti həvəslərdən qaynaqlanır. Hər hansı bir şeyi əldə etmək üçün ciddi çalışırlar, həmin şeyi əldə etdikdən qısa müddət sonra həmin şeyə maraqlarını itirirlər. Ona görə, qısa müddət sonra sevincləri də sönür. Məsələn, son model avtomobil almaq istəyən bir nəfər bu avtomobili əldə etdikdə sevinir, ancaq bir müddət sonra avtomobilə marağı itir, artıq sevinc hissi də sönür.

Uca Allah bir Quran ayəsində dünya zövqlərinin də dünyadakı hər şey kimi müvəqqəti olduğunu belə xəbər verir:

***Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir… (Hədid surəsi, 20)***

## İman gətirən insanlar hər an xoşbəxt və rahat olurlar

İman gətirən insanlar nemətlərdə əskilmə olduqda, xəstəlik və ya başqa hər hansı çətinlik zamanı sevinclərini itirməzlər. Xoşbəxt olmaları üçün xüsusi səbəbə ehtiyac yoxdur, iman gətirmək onlar üçün ən böyük şükür və sevinc mənbəyidir. Dünya həyatındakı çətinliklərin onlara sınanmaq üçün verildiyini və çətinliklərə səbir etdikdə bunun Allah dərgahında gözəl qarşılığı olacağına ümid bəsləyirlər. Bu düşüncə onların sevinc mənbəyidir. Vicdanla hərəkət etdikləri üçün müqayisə edir və nemətlərin dəyərini daha yaxşı bilirlər.

# Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir... (Hədid surəsi, 20)



İman gətirməyən insanlarda isə vəziyyət tam tərsinədir. Bir evi olan insan daha böyük evi olan dostunu gördükdə sevinmək əvəzinə paxıllıq edir, bundan da böyük evi əldə etmək üçün planlar qurur. Ancaq ən böyük evi əldə etsə də, yenə xoşbəxt olmayacaq. Çünki Allah dünya həyatındakı rahatlığı və xoşbəxtliyi evin böyüklüyünə, gözəlliyinə, yemək-içməyin bolluğuna, şöhrətə və ya başqa nailiyyətə bağlı yaratmayıb. Bir az dərin düşünən insanlar bunu dərhal qavrayarlar.

Bir insanın nə qədər böyük evi olsa da, bir otaqda, bir mətbəxdə və bir hamamda yaşayır. Bu insan on otaqlı evə sahib olarsa, otaqların hamısında eyni anda olmaz, bir otağın içində yaşar.

Ən zəngin qonaqlıq süfrəsi arxasında oturmuş insan üçün də vəziyyət eynidir. Zəngin süfrə belə olsa, hər insanın müəyyən qədər yemək yeyə bilir, ən ləzzətli yeməklər belə məhdud miqdarda yeyilir, çox yeyilsə, orqanizmdə ciddi narahatlıqlar yaradır.

Gənclik və gözəllik də müvəqqətidir, hər insan zaman ərzində yaşlanır, gücünü itirir. İman olmasa, bu, insan üçün böyük sıxıntı olar.

Dünyada verilən nemətlərin hamısına artıqlaması ilə sahib olduqda deyil, sevgi ilə paylaşdıqda, fədakarlıqla hərəkət etdikdə zövq verir, əks təqdirdə, insanın həyat keyfiyyətini aşağı salan əzaba çevrilir.

İmanın dərəcəsi artdıqca insan nemətlərdən daha çox zövq alır, hər şeyin gözəl cəhətini görür, hər hadisədə bir xeyir görür. Bu da dərin imana, sevməyə, sevilməyə və rahatlığa səbəb olur.

İman gətirməyən insanların sevinci müvəqqətidir

Uca Allah`a və axirətə yəqinliklə iman gətirməyən insanlar əsla həqiqi sevinc hissini duymazlar. Onlar ancaq mənfəətləri olduqda, nəfslərinin istəklərini müvəqqəti təmin etdikdə sevinirlər. Ancaq bu, müvəqqəti sevinc hissidir. Çünki mənfəətləri olmadıqda və həvəsləri itdikdə sevincləri də itir.

Halbuki, möminlər üçün uca Rəbbimizin rizasını qazanmaq və din əxlaqına xidmət etmək məqsədilə görülən hər iş sevinc və xoşbəxtlik mənbəyidir. Möminlərin bu sevinci imanın sevincidir.

İmanın sevinci səmimi sevinc hissidir, qəlbində həqiqi iman olmayan insanlar bu sevinc hissini təqlid edə bilməzlər. Çünki bu, uca Allah`ın rizasını, rəhmətini və əbədi cənnət həyatını ümid edən möminin qəlbinin Allah`dan gələn sevinclə dolmasıdır. Möminlərin dünya həyatındakı sevinc dolu həyatı Rəbbimizin izni ilə cənnətdə artaraq davam edəcək.

Bir Quran ayəsində iman gətirənləri cənnətdə gözləyən xoşbəxt həyat belə müjdələnmişdir:

***İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar cənnət bağçalarında şadlıq içində olacaqlar. (Rum surəsi, 15)***

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.**

(Nəhl surəsi, 97)



Düşünən İnsan, Mart 2014

# FİRON DÖVRÜNDƏKİ

## HƏDƏ-QORXU ŞƏRAİTİNDƏ İMAN GƏTİRƏN MÖMİNLƏR

Quranda tarixin müxtəlif dövrlərində Allah`ın rəsullarına və möminlərə qarşı mübarizə aparmış bəzi öndə gələn şəxslər olduğu xəbər verilir. Din əxlaqına qarşı çıxan bu şəxslər cəmiyyətə inkarçı düşüncə tərzini təlqin etməklə kifayətlənməmiş, eyni zamanda, bu düşüncəni qəbul etməyənlərə təzyiq göstərmiş, zorakılıq etmişlər. Xüsusilə də möminlərin təbliğ etdiyi din əxlaqının qarşısını almaq üçün təzyiq və zorakılıq yoluna əl atıblar. Hz. Musanın təbliği ilə qövmündən iman gətirənləri işgəncə ilə hədələyən firon belə insanlardan biridir. Ancaq bütün hədə-qorxulara baxmayaraq, qövmündən bir qrup gənc ilə əvvəllər fironun yanında olan bəzi insanlar hz. Musanın təbliği vəsiləsi ilə Allah`a iman gətiriblər.

Tarixi mənbələrə görə, hz. Musanın təbliğ etdiyi dövrdə Misir firon II Ramzesin hakimiyyəti altında idi. Firon İsrail oğullarını qul kimi işlədir, dözülməz işgəncələr verir, nəsillərinin davam etməməsi üçün oğlan uşaqlarını doğulan kimi öldürtdürürdü.

Hz. Musa doğulduqda Allah onu bir möcüzə kimi öldürülməkdən xilas etmiş, üstəlik, fironun sarayında böyütmüşdür. Yetkinlik yaşına çatan hz. Musa buradakı zülm sistemindən xilas olmaq üçün Misiri tərk edərək Mədyənə gedir. Uca Allah uzun illər burada qalan hz. Musanı seçir və ona peyğəmbərlik verir. Qardaşı hz. Harunu da peyğəmbər və ona köməkçi edir (Məryəm surəsi, 53). Sonra uca Allah hər ikisinə firona təbliğ etmək tapşırığı verir. Uca Allah`ın əmri ilə hz. Musa və hz. Harun fironu din əxlaqına dəvət etməyə gedir, onların dəvətinə şübhə ilə yanaşan firon isə ayələrdə bildirildiyinə görə, onlardan dediklərini təsdiqləyən dəlil istəyir:

*(Firon Musaya) dedi: "Əgər möcüzə ilə gəlmisənsə və doğru deyirsənsə, onu gətir göstər!" (Əraf surəsi, 106)*

### Hz. Musa fironun sehr oyununu pozur

Tarixi mənbələrə görə, firon dövründə Misirdə batil adət olan sehrbazlıq çox yayılmışdı. Gözbağlayıcılıq olan sehrbazlıq nümayişlərini firon da dəstəkləyir və bu nümayişlər fironun gücünü göstərmək üçün bəzən təşkil olunurdu. Bu şəkildə, xalqı təsir altına salıb firona itaət etməsi təmin olunur, fironun zülm və qorxu sistemi qorunurdu. Fironun sehrbazlıq oyunlarına qarşı uca Allah hz. Musanı açıq-aşkar möcüzələrlə göndərmişdi. Quranda bildirildiyi kimi, hz. Musa və hz. Haruna qarşı hünərlərini göstərmək üçün Misirin hər tərəfindən sehrbazlar toplanıb gətirilir. Firon və ətrafındakılar bu mübarizədə qalib gələcəklərini və hakimiyyətlərini qoruyub möhkəmləndirəcəklərini düşünürdülər. Ona görə, sehrbazlara da qalib gəldikləri təqdirdə iqtidara yaxınlıq, mövqe, vəzifə vəd verirlər. Bu, Quranda belə xəbər verilir:





***Sehrbazlar fironun yanına gəlib dedilər: "Əgər qalib gəlsək, doğrudanmı bizim üçün mükafat olacaq?" (Firon) dedi: "Bəli, siz (mənə) yaxın adamlardan olacaqsınız". (Əraf surəsi, 113-114)***

Quranda adı çəkilən peyğəmbərlər arasında ən çox ayə hz. Musa haqqındadır və onun həyatı və mübarizəsi bu ayələrdə hərtərəfli təsvir olunur. Allah ona qardaşı hz. Harun ilə birlikdə müstəbid hökmdar olan fironla qövmünü doğru yola dəvət etmək vəzifəsi vermişdir. Firon və dövrün öndə gələn şəxsləri hz. Musanın dəvətini qəbul edib iman gətirmədikləri kimi, digər insanları da iman etdikləri təqdirdə cəzalandırmaqla hədələyirlər.

Hz. Musaya mütləq üstün gələcəklərini düşünən sehrbazların hz. Musa ilə qarşılaşması Quranda belə xəbər verilir:

***Dedilər: "Ey Musa! Ya sən at, ya da birinci atan biz olaq!" O dedi: "Xeyr, siz atın!" (Sehrbazlar əllərindəkini yerə atan kimi) onların sehri üzündən birdən (Musaya) elə gəldi ki, onların ipləri və dəyənəkləri hərəkətə gəlib sürünür. (Taha surəsi, 65-66)***

Ayədəki "(Musaya) elə gəldi ki, onların ipləri və dəyənəkləri hərəkətə gəlib sürünür" ifadəsi, əslində, sürünmə hadisəsinin olmadığını, sadəcə baxan insanlara elə göründüyünü açıqlayır. Allah bu sehrdən təsirlənməməsi üçün hz. Musaya belə buyurur:

***Musanın canına qorxu düşdü. Biz dedik: "Qorxma, qalib gələn mütləq sən olacaqsan! Sağ əlindəkini yerə at, onların qurduqlarını udsun. Onların qurduqları sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə hara gedirsə-getsin, uğur qazanmaz". (Ta ha surəsi, 67-69)***

Hz. Musa Rəbbimizin əmri ilə dərhal sehrbazlara çevrilib onların etdiyinin sehr olduğunu və Allah`ın bu sehri pozacağını deyir. Bu barədə ayədə belə bildirilir:

***Onlar atdıqda Musa dedi: "Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz". (Yunis surəsi, 81)***

Sonra uca Allah hz. Musaya öz əsasını tullamağı vəhy edir, əsa böyük ilana çevrilərək sehrbazların atdıqlarını udur. Allah`ın bir möcüzə kimi yaratdığı bu hadisə nəticəsində həqiqətlə saxtakarlıq üzə çıxır.





Bu hiylə ilə hz. Musaya da tələ qurmaq istəyən firon və yaxınları öz xalqlarının önündə alçalırlar.

*Biz Musaya: “Əsanı at!”– deyə vəhy etdik. Elə bu an (əsa ilana çevrilib) onların düzəltdikləri şeyləri uddu. Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu. Orada məğlub oldular və rüsvay olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

## Öz yanındakı insanların iman gətirməsinə fironun münasibəti

Hiylənin, sehrin nə olduğunu çox yaxşı bilən sehrbazlar hz. Musanın etdiyinin sehr deyil, bir möcüzə olduğunu dərhal anlayırlar. Bir insanın belə bir şeyi etməsinin qeyri-mümkün olduğunu bilən bu şəxslər Allah`ın qeyri-adi möcüzəsini anlayıb dərhal səcdə edirlər. Bu hadisə Quranda belə bildirilir:

*Sehrbazlar səcdəyə qapandılar. Onlar dedilər: “Aləmlərin Rəbbinə iman gətirdik! Musa və Harunun Rəbbinə!” (Əraf surəsi, 120-122)*

Bir az əvvəl çox etibar etdiyi insanların məğlub olması və hz. Musanın təbliği ilə Allah`a iman gətirməsi fironu qəzəbləndirir. Ölkəsindəki insanlar da daxil olmaqla, hər şeyin sahibi olduğunu zənn edən və (Allah`ı tənzih edirik) insanların nəyə inanıb-inanmayacağına belə özü qərar verən fironun bu hadisəyə münasibəti

Quranda belə bildirilir:

*Firon dedi: “Mən sizə izn verməmişdən əvvəl siz ona iman gətirdiniz? Şübhəsiz ki, bu, şəhərdə qurduğunuz bir hiylədir ki, əhalisini oradan çıxarasınız. Tezliklə biləcəksiniz. (Əraf surəsi, 123)*

Hz. Musa Allah`ın izni ilə, böyük möcüzə göstərməsinə baxmayaraq, insanların səmimi iman gətirməsini qəbul etmək istəməyən firon iman gətirmir, hz. Musa ilə birlikdə iman gətirənlərə böhtan atır. Hz. Musa ilə əvvəllər öz yanında olan insanların ortaq hərəkət etdiyini iddia edir, onların xalqı ölkədən sürgün etmək məqsədilə plan qurduğunu deyir. Beləliklə, xalqın öz tərəfində olmasına, təqsirkar elan etdiyi hz. Musa ilə yanındakı iman gətirənlərə qarşı özünü dəstəkləməsinə çalışır.

## Fironun hədə-qorxusuna qarşı iman gətirənlərin nümunəvi davranışı

Təkəbbür edərək Allah`ın elçilərinə inanmayan bütün insanlar kimi firon da açıq-aşkar möcüzə görməsinə baxmayaraq inkar edir. Fironun təkəbbürü, ağılsız davranaraq inadkarlıq etməsi tək ilah olan Allah`ın varlığını, elçilərin dəvət etdiyi yolun doğru yol olduğunu qəbul etmək istəməyən insanların





ortaq xüsusiyyətidir. Belə insanlar hər dövrdə olur.

Firon inkarçılara xas xüsusiyyəti ilə iman gətirənlərin təsirini aradan qaldırmaq, sarsılmış nüfuzunu bərpa etmək və xalqa təzyiqini davam etdirmək üçün iman gətirənləri işgəncə və ölümlə hədələyir. Lakin iman gətirənlər hz. Musanın möcüzə göstərdiyini və ancaq Allah`ın izni ilə belə bir şeyin baş verdiyini çox yaxşı bildiklərinə görə dərhal hz. Musaya tabe olur və Allah`a iman gətirirlər. Əvvəllər fironun tərəfində olan, lakin sonra iman gətirən bu insanların nümunəvi davranışı ayələrdə belə bildirilir:

***(Firon) dedi: "Mən sizə izn verməmişdən əvvəl siz Ona iman gətirdiniz? Şübhəsiz ki, O, sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!" Onlar dedilər: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi Yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən! (Ta ha surəsi, 71-72)***

***Əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, sonra da hamınızı çarmıxa çəkəcəyəm". Onlar dedilər: "Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq. Sən sadəcə, Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür". (Əraf surəsi, 124-126)***

Ayələrdə bildirildiyinə görə, iman gətirənlər fironun hədələrinə qarşı qətiyyətli olmuş, ona heç cür boyun əyməmişlər. Öldürülsələr də, hər şeyin Rəbbi olan uca Allah`a qayıdacaqlarına və bağışlanacaqlarına ümid bəsləmişlər.

Firon hz. Musanın göstərdiyi möcüzə nəticəsində məğlub olması və yanındakı şəxslərin iman gətirməsi ilə cəmiyyətə təzyiqini artırır. Fironun təzyiqinə görə, hz. Musaya öz qövmündən bir qrup gəncdən başqa Misir xalqından kimsə iman gətirmir. İstər hz. Musanın qövmündən bir qrup gəncin iman gətirməsi, istərsə də firon tərəfindən işgəncə ilə öldürülməyə hazır olan insanların Allah`ın açıq-aşkar ayəsinə şahid olub iman gətirmələri bütün insanlara gözəl nümunədir. Bu əməlisaleh möminlər dünyəvi istəklərin boş, əsl həyatın isə axirət olduğunu anlamışdılar. Qısa dünya mənfəətlərini - nə qədər cəlbedici görünsə də - əbədi cənnət nemətlərindən üstün tutmamışdılar.



# Mikro elektrik açarlarına ilham mənbəyi olan palma böcəkləri



Bu gün bir çox elm adamı və tədqiqat-təkmilləşdirmə (ARGE) mütəxəssisi layihələrinə başlamazdan əvvəl canlılardakı nümunələri araşdırır, onlardakı sistemləri və dizaynları təqlid edirlər. Başqa sözlə, elm adamları Allah`ın təbiətdə yaratdığı sistemləri tədqiq edir və bunlardan ilham alaraq yeni texnologiya məhsulları icad edirlər. Palma böcəkləri də elm adamlarına ilham verən minlərlə canlıdan biridir.

Xüsusilə son illərdə təbiətdəki üstün yaradılış dəlilləri elm adamlarına texnoloji irəliləyişdə ilham mənbəyi olur. Kornel Universitetində Kimya və Biomolekulyar Mühəndislik fakültəsindən professor Pol Stin (Paul Steen) tərəfindən dizayn olunan mikro elektrik açarları bu nümunələrdən biridir. Palma böcəklərindən ilham alaraq son texnologiya ilə istehsal olunmuş bu elektrik açarları mikron səviyyəsi adlandırılan metrin milyonda birinə bərabər ölçüdə öz-özünə işləyə bilir.

## Palma böcəklərinin hansı xüsusiyyəti açar istehsalına ilham mənbəyi olub?

Palma böcəyi hücuma məruz qaldıqda düşmən canlı gedənə qədər özünü yarpağa yapışdıraraq qoruyur. Dərhal sonra hər biri sadəcə bir neçə mikron ölçüdə təqribən 120 min yağ damcısı ifraz edir. Bu yağ damcıları böcəyin ayaqları ilə yarpaq arasında təmas quran körpü funksiyası yerinə yetirir. Palma böcəyi yağ vasitəsilə yarpağa təması mexaniki tənzimləyir. Pol Stinin böcəkdən ilham alaraq icad etdiyi elektrik açarı isə su və elektrikdən istifadə edir.

## Mikro elektrik açarı necə işləyir?

Mikro elektrik açarının iş prinsipi suyun səth gərginliyi ilə əlaqədardır. Eynilə iki nəm kağızın bir-birinə yapışması kimi, açar bir səthlə təmas etdikdə su zərrəciyinin səth gərginliyindən istifadə edir.

Bu açar rabitə qurma və ya rabitəni kəsməni suyun səth gərginliyi vasitəsilə həyata keçirir. Su zərrəciyi elektrodlardan gələn elektrikdən istifadə edərək düz lövhənin altına və ya üstünə doğru hərəkət edir. Suyun içindəki elektrik sudakı ion adlı müsbət yüklü atomları lövhənin içinə yerləşdirilmiş məsaməli nazik şüşə diskin simlərinə daşıyır. Su hərəkət edir və lövhənin üstündə mikrometr ölçüdə bir zərrə damcıya çevrilir. Bu damcı artıq başqa səthə yapışa bilir. Əmələ gələn rabitəni qırmaq üçün açar elektrik hasil edən damcını mikro məsamələrdən geri çəkir.

Millimetr ölçüsündəki zərrələr və mikron ölçüsündəki məsamələrlə birlikdə 5 volt elektrik 1 saniyədə elektrik açarını işə salır. Eyni zamanda, tədqiqatçılar daha kiçik zərrələrin hərəkət etmək üçün daha az enerji tələb edəcəyini və daha sürətli açma-qapama edəcəklərini irəli sürürlər. Mühəndislər yüzlərlə nanometr kiçikliyində (təqribən 1 metrin

milyardda biri qədər) və böcək damlasının onda biri ölçüsündə olan daha bir elektrik açarının tədqiqat mərhələsində olduğunu deyirlər. Mikro elektrik açarını icad edən Pol Stin bu texnologiyanı belə şərh edir:

"Bu yeni texnologiya əlimizin böyüklüyü ilə nanometr qədər kiçik ölçülər arasındakı uçuruma körpü olacaq. Bizim bu iki ölçünün bir-biri ilə rabitəsini təmin edən cihazlara ehtiyacımız var". (http://www.psychcentral.com/news/archives/2005-08/cunsbsu082205.html)

Elm adamlarının ilham aldığı bu kiçik canlıdakı xüsusiyyətlər uca Allah`ın qüsursuz yaratmasını göstərir. Canlılar bu xüsusiyyətlərə yaradıldıqları andan etibarən malikdirlər. Halbuki, insanlar bu üstün xüsusiyyətləri son bir neçə ildir təqlid edirlər.

Kainatdakı canlı və cansız hər şey uca Allah`ın yaratma dəlillərinə nümunədir. Hər şeyin Allah`ın nəzarətində olduğunu, bütün canlılara xüsusiyyətlərini bəxş edənin və nitq verənin Rəbbimiz olduğunu bilən müsəlman üçün yaradılış dəlilləri mühüm iman həqiqətidir. Rəbbimiz bu həqiqəti Quranda belə açıqlayır:

***(Bunu) Allah`a üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə (belə etdik.) (Qaf surəsi, 8)***

***Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır… (Nəhl surəsi, 66)***



Palma böcəyi öz çəkisinin 100 misli olan qüvvə ilə palma yarpaqlarına necə yapışır? Bu böcəklər elektronikaya necə model olub?

Alüminium qədər güclü rabitələr əmələ gətirən və bu rabitələri qurmaq üçün su zərrəciklərindən istifadə edən elektrik açarı yaradıldıqları gündən bəri bu texnikadan istifadə edən palma böcəklərindən ilham alınaraq icad edilib.

Böcəklər palma yarpağına öz çəkilərindən 100 dəfə artıq qüvvə ilə yapışırlar. Bu rəqəm bir insanın 7 avtomobili daşıma qüvvəsinə bərabərdir.



# YENİ BİR SİVİLİZASİYA QURULMALIDIR

90-cı illərdən etibarən gündəmdə olan tarixin sonu və sivilizasiyaların qarşıdurması kimi məfhumlardan sonra XXI əsrin, bəlkə də, ən çətin dövründə yaşayırıq. Həqiqət bundan ibarətdir ki, bu məfhumların heç biri əsaslı deyil və həll yolu deyil, dünyanın təcili surətdə yeni bir sivilizasiyaya ehtiyacı var.

Getdikcə tənhalaşan və sevgidən uzaqlaşan insanlar əxlaqi degenerasiya, iqtisadi böhran, yoxsulluq, terror, anarxiya, qarşıdurmalar artıq dünyanın sadəcə müəyyən bölgələrini əhatə etməklə qalmır. Baş verənlər sadəcə bir bölgədə deyil, bütün dünyada bəzi şeyləri dəyişdirmək lazım gəldiyini göstərir.

Keçən əsrdə zülmün mərkəzində olan İslam dünyası bu əsrdə irəliləyişin lideri ola bilər. İslamı tanımayan bir çox insan ilk baxışda bunun necə olacağını anlamaya bilər, halbuki bu, çox asandır. Sevməyi bilməyənlərin 1400 ildir din adı altında müsəlmanların üstünə yüklədikləri bütün zəncirləri qırıb Quranın sevgi dolu ruhuna tabe olmaqla, həsrətində olduğumuz sivilizasiyanı qurmaq mümkündür.

Bir müddət əvvəl Nigeriyada adı "Təhsil haramdır" mənasını verən "Boko Haram" təşkilatının tələbələri vəhşicəsinə öldürməsi, Əfqanıstanda oxumaq istədiyi üçün gənc qızların işgəncəyə məruz qalması kimi nümunələr haradan başlamaq lazım olduğunu göstərir: təhsil. Elmi, texnologiyanı, incəsənəti müsəlmanlara qadağan edərək, bir növ əlini-qolunu bağlayıb əzilməyə məhkum edənlərin təsirini aradan qaldırmağın yeganə yolu təhsildir.

Ancaq burada həyati əhəmiyyətli xüsus var. Sözsüz ki, qərb təhsili şərtdir, ancaq qərbdə təhsil aldığı halda, şərqə və Afrikaya gedib terrorçuluq edən müsəlmanların sayı çoxdur. Bu xüsusun üzərində yaxşı düşünmək lazımdır. Aydındır ki, cahillik içində qalanları istiqamətləndirmək daha asandır, bəs elm, fəlsəfə, incəsənət, texnologiya və s. kimi sahələrdə yaxşı təhsil almış gəncləri terrora sövq etmək necə mümkün olur? Diqqətlə baxdıqda problemin istər qərbdə, istərsə İslam dünyasında zorakılığı və şiddəti qanuniləşdirən təhsil sistemi olduğunu görürük.

Qərb təhsil sisteminin mənfi amillərinin nələr olduğunu bilirik. İstər şiə, istərsə sünni yazılı mənbələrindəki zorakılığa, şiddətə təşviq edən fikirlər çox vaxt qulaqardına vurulur. Təəssüf ki, bir çox gəncə İslam öyrədilərkən, əvvəlcə, bu mənbələr öyrədilir. Quranda nə yazıldığından heç xəbəri olmayan, bildiklərini isə xurafatçı düşüncə tərzi ilə öyrənmiş nəsil şiddətə asanlıqla yönəlir.

Bir tərəfdən: "İslam sevgi dinidir", - deyərkən, digər tərəfdən namaz qılmayanın, oruc tutmayanın, hətta saqqalını qırxanın öldürülməsini əmr edən mənbələrin olması həm ciddi ziddiyyət, həm də mühüm təhlükədir. İslamın qadına dəyər verdiyindən bəhs edənlərin "qadınlar nə desələr, dediklərinin əksini edin", "qadınlar yarım məxluqdur", "cəhənnəm əhlinin əksəriyyəti qadınlardır" kimi "hədis"lərin əsassız olduğunu qəbul etməmələri ciddi problemdir. İslama sonradan daxil edilmiş və Qurana zidd olan nifrət, qəzəb, zorakılıq dolu ifadələr aradan qaldırılmadan: "Müsəlmanlar sevgi dolu insanlardır", - demək kifayət deyil.

Əlbəttə, Qurana görə, müsəlmanlar sevgi dolu, mehriban, mərhəmətli olmalı və insanlara heç cür təzyiq göstərməməlidirlər. Ancaq əsl məsələ İslam aləminin bir qisminin Qurana deyil, bəzi batil adətlər və xurafatlara görə hərəkət etməsidir. Odur ki, yuxarıda bir-iki misal çəkdiyimiz xurafatların hamısı aradan qalxmadıqca, müsəlmanlar Qurana üz tutmadıqca İslam adı altında zorakılıq edənlərin qarşısının alınması və islamofobiyanın aradan qalxması da mümkün deyil.

Təqribən 150 ildir elmi, incəsənəti, texnologiyanı, keyfiyyəti, mədəniyyəti müsəlmanların əlindən alıb, əllərini-qollarını bağlayan xurafatçılığın necə böyük bəla olduğunu görməmək mümkün deyil. Bəzi qərblilər bu bəlanı aradan qaldırmaq üçün İslama qarşı çıxmağı üstün tuturlar. Halbuki, bu, bəlanı daha da böyüdür, radikalizmə və zorakılığa təşviq edir. Xurafatçılığın və zorakılığın çarəsi Qurandır.

Tədqiqata və təhlilə təşviq edən, incəsənətə və gözəlliyə dəyər verən, qadınların dövlət idarəçiliyində önünü açan, azad düşünməyi təmin edən, insanların üzərindəki hər cür təzyiqin qalxmasının tərəfdarı olan, düşüncə və inancından asılı olmayaraq, insanların yaxşı yaşamasını irəli sürən, sevinci, dinamikliyi, yaradıcılığı istəyən Quran əxlaqı müsəlmanların yeganə çıxış yoludur.

Müsəlmanlar bu əxlaqın qazandırdığı düşüncə tərzi ilə yanaşdıqda təkcə İslam dünyasını xilas etməyəcək, eyni zamanda, bütün dünyaya istiqamət verən yeni sivilizasiya quracaqlar və insanlara yol göstərən işıq olacaqlar.

# Fosillər təkamülü təkzib edir



## SÖYÜD YARPAĞI

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Yuta, ABŞ
Fosil qeydləri digər canlılar kimi bitkilərin də milyon illərdir dəyişmədiyini göstərir. Bitkilər bu gün hansı sistem və mexanizmlərə malikdirsə, milyon illər əvvəl də eyni sistem və mexanizmlərdən ibarət idilər. Yer üzünün hər tərəfindən toplanan yüz minlərlə bitki fosili təkamül nəzəriyyəsini qəti təkzib edir. Şəkildəki söyüd yarpağı fosili də 54-37 milyon ildir söyüdlərin dəyişmədiyini sübut edir. Bu fosil bitkilərin təkamül keçirmədiyini, yaradıldığını göstərir.



Düşünən İnsan, Mart 2014







## SİYƏNƏK VƏ GÜNƏŞ BALIĞI

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Vayominq, ABŞ
Siyənək və günəş balıqları fosil qeydlərində tez-tez rast gəlinən balıq növləridir. Hər fosil canlıların təkamül keçirmədiyini göstərir. 54-37 milyon illik bu fosil də dövrümüzdəki siyənək və günəş balıqları ilə keçmişdə yaşayanlar arasında heç bir fərq olmadığını göstərir.











## AYI KƏLLƏ SÜMÜYÜ

Dövr: Kaynozoy erası, Pleystosen dövrü
Yaşı: 50 min il
Bölgə: Miçiqan, ABŞ
Təkamülçülər itlərlə ayılar arasında bəzi anatomik bənzərliklər olduğunu irəli sürərək hər iki canlının ortaq əcdaddan təkamül yolu ilə törədiyini iddia edirlər. Fosil qeydləri isə bu iddianın əsassız olduğunu göstərir. Bu günə qədər yarı it, yarı ayı fosil tapılmayıb, ancaq ayıların da, itlərin də dəyişmədiyini göstərən yüzlərlə fosil əldə edilib. Şəkildəki qara ayı kəllə sümüyü fosili də ayıların təkamül keçirmədiyini sübut edir.







# Həzrəti İsanın (Ə.S)

## həyatı, mübarizəsi və üstün əxlaqı

Tarixi mənbələrə əsasən, hz. İsa təqribən 2000 il əvvəl yaşamış Allah`ın dünyada və axirətdə seçdiyi elçisidir.

Allah`ın üstün xüsusiyyətlər bəxş etdiyi, əbədi cənnət yurdu ilə müjdələdiyi bu dəyərli elçisinin gətirdiyi haqq dinin adı bu gün yer üzündə qalsa da, özü təhrif olunmuşdur. Allah`ın hz. İsaya vəhy etdiyi İncilin də sadəcə adı qalıb, ancaq əsli yoxdur. Xristian mənbələri təhrif olunmuşdur. Ona görə, bu gün hz. İsa haqqında doğru məlumatları bu mənbələrdən əldə etmək mümkün deyil. Hz. İsa haqqında doğru məlumatı ancaq Allah`ın qiyamətə qədər qoruyacağı Qurandan ala bilərik. Quranda hz. İsanın doğulması, həyatı, bu müddətdə başına gələn hadisələrdən nümunələr, ətrafındakı insanların vəziyyəti və daha bir çox mövzudan bəhs edilmişdir. Hz. İsanın yəhudilərə necə təbliğ etdiyi də bir çox nümunə ilə xəbər verilmişdir. “Ali-İmran” surəsində Rəbbimiz belə buyurur:

***Məndən əvvəl (nazil olmuş) Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün (göndərildim). Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allah`dan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! (Çünki) bu, düz yoldur”. (Ali-İmran surəsi, 50-51)***

Hz. İsanın bu dəvətini yəhudilərin çoxu qəbul etməmiş, ancaq az sayda həvari ona tabe olmuşdur. Quranda bu səmimi insanlar haqqında belə bildirilir:

***İsa onlardakı küfrü hiss etdikdə dedi: “Allah yolunda kimlər mənə yardımçı olacaq?” Həvarilər dedilər: “Bizik Allah`ın yardımçıları! Biz Allah`a iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!” (Ali-İmran surəsi, 52-53)***

Əhdi-cədidə (Bibliyanın ikinci hissəsi) görə, hz. İsa yanında 12 tələbəsi ilə birlikdə Fələstinin hər tərəfinə səyahət etmişdir. İnsanları Allah`a iman gətirməyə dəvət etmək üçün səyahət edərkən Allah`ın izni ilə müxtəlif möcüzələr göstərmişdir. Xəstə, şikəst insanları, cüzam xəstəliyinə tutulanları sağaltmış, anadangəlmə korların gözlərini açmış, ölüləri diriltmişdir. Bu möcüzələr Quran ayələrində belə xəbər verilir:

***“Mən sizə Rəbbinizdən bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allah`ın izni ilə quş olar. Allah`ın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır. (Ali-İmran surəsi, 49)***

***Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı sağaldır və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq-aydın dəlillərlə gəldikdə Mən onları səndən dəf etmişdim... (Maidə surəsi, 110)***



Hz. İsa böyük möcüzələr göstərmiş, insanlar onun möcüzələrindən çox təsirlənmişlər. Ancaq hz. İsa daima bu möcüzələrin Allah`ın izni ilə baş verdiyini bildirmişdir.

Maneələrə baxmayaraq, təzyiq və zülm altında yaşayan xalqın arasında hz. İsaya inananların sayı artmağa başlamışdı. Bu dövrdə hz. İsa və həvariləri bütün ətraf qəsəbələri və şəhərləri dolaşmışlar. Bu zaman rahiblər illərdir davam etdirdikləri adət-ənənələrinin batil cəhətlərini açıqlayan, səhv yolda olduqlarını izah edən, onları ancaq Allah`a iman gətirib Allah üçün yaşamağa çağıran hz. İsaya tələlər hazırlamağa başlayırlar.

Quranda hz. İsanın Allah dərgahına qaldırıldığı və ona bənzər birisinin hz. İsa zənn edilərək öldürüldüyü xəbər verilmişdir. Hz. İsa bütün peyğəmbərlər kimi qövmünü Allah`a iman gətirməyə, könüldən təslim olub Allah`ın rizasını qazanmaq üçün yaşamağa, günahlardan və pisliklərdən çəkinməyə, yaxşı işlər görməyə dəvət etmişdir. Onlara dünya həyatının müvəqqəti, ölümün yaxın olduğunu xatırlatmış, axirətdə hər insanın bütün əməllərinə görə sorğu-sual olunacağını bildirmişdir. İnsanları ancaq Allah`a ibadət etməyə və ancaq Allah`dan qorxub-çəkinməyə çağırmışdır. İncildə də bu mövzularla bağlı çoxlu sayda öyüd-nəsihətə rast gəlmək mümkündür. Hz. İsa İncildəki ifadə ilə imanı az olanlara öyüd verir, insanlara Allah`ın hakimiyyətinin yaxın olduğunu müjdələyir və onları Allah`dan bağışlanma diləməyə dəvət edir.

Hz. İsa hz. Musanın şəriətinə, yəni əsl Tövratın hökmlərinə bağlı qalmış, yəhudilərə də bu



hökmlərdən uzaqlaşdıqlarına, hökmləri qeyri-səmimi, göstəriş məqsədilə yerinə yetirdiklərinə görə xəbərdarlıq etmişdir. Əhdi-cədidə əsasən, ona qarşı çıxan yəhudilərə: *"Əgər siz Musaya inansaydınız, Mənə də inanardınız, çünki o, Mənim barəmdə yazıb" (Yəhya, 5:46)* - demişdir. Hz. İsa insanları əsl Tövrata dəvət etmişdir. Matta İncilində hz. İsanın müqəddəs qanuna, yəni hz. Musanın şəriətinə tabe olmaq üçün əmr etdiyi belə bildirilir:

*... Mən onları ləğv etmək üçün yox, tamamlamaq üçün gəldim... (Matta, 5:17)*

Quranda da hz. İsa haqqında belə xəbər verilir:

***Məndən əvvəl (nazil olmuş) Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün (göndərildim). Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allah`dan qorxun və mənə itaət edin. (Ali-İmran surəsi, 50)***

## Hz. İsanın mübarizəsi

Hz. İsanın gəldiyi dövrdə yəhudilərin içində dini müxtəlif cür şərh edən bir çox məzhəb var idi. Allah`ın hz. Musaya vəhy etdiyi haqq dindən uzaqlaşmış, batil adətlər və inanclar uydurmuşdular. Bundan əlavə, bütpərəstlik də insanlar arasında yayılırdı. Bütpərəstliyin təsiri altındakı bəzi yəhudi məzhəbləri isə tövhid inancı əvəzinə bu batil inancın simvollarını, heykəllərini qoymağa başlamışdılar.

Quran ayələrindən hz. İsanın dinləri haqqında ixtilafa düşənlərə yol göstərdiyi başa düşülür. İncildəki təriflərdən də hz. İsanın, əvvəlcə, saxta

din adamlarını, Allah`a şərik qoşan müşrikləri, dindar görünərək xalqı aldadanları bu əməllərindən çəkinməyə, səmimiyyətlə Allah`a iman gətirməyə dəvət etdiyi başa düşülür. Əhdi-cədidə əsasən, hz. İsa təbliğ edərkən bir tərəfdən də şiddətli zülm görən xalqa yaxında Allah`ın hakimiyyətinin qurulacağını söyləyərək inanclarını canlandırmışdır. Bu zaman hz. İsanın hz. Davudun nəslindən olması xəbəri xalq arasında yayılmış və onun gözlənilən Məsih olduğu inancı dalğa-dalğa yayılmışdır (Matta, 9:28-35). Bütün bunlar isə mənfəətpərəst xurafatçı din adamlarını və Romanın gətirdiyi bütpərəstliyi qəbul edənləri narahat etmişdir.

Əhdi-cədidə görə, bu insanlar hz. İsanın təbliğinə mane olmaq üçün hər fürsətdən istifadə etmiş, ancaq hər dəfə məğlub olmuşdular. Hz. İsanın onların iddialarını tamamilə təkzib edən cavablar verməsi və hikmətli açıqlamaları din adamlarını çox narahat etmişdir. Bəzi yəhudi rahibləri Tövratın hökmlərini dəyişdirmişdilər, öz mənfəətlərinə uyğun hökmlər əlavə etmişdilər. Hz. İsa yəhudilərə verdiyi öyüdlərlə bu saxta hökmləri aradan qaldırırdı. Hz. İsa hz. Musanın gətirdiyi saf dinə qarışmış batil adətləri, xurafatları, insanların qadağalarını təmizləyirdi.

Peyğəmbərlər Allah`ın onlara verdiyi vəzifəni layiqincə yerinə yetirmiş, insanları hidayətə dəvət etmək üçün əllərindəki imkanlardan istifadə etmişlər. Hz. İsa da ona qurulan tələlər, atılan böhtanlar və hücumlara səbir etmiş, Allah`a təvəkkül edib təbliğinə davam etmişdir. O, yanında az sayda köməkçisi olmasına baxmayaraq, daima qalib gəlmişdir. Təbliğ zamanı dini əslinə qaytarmaq, xurafat və bidətlərdən təmizləmək üçün bir çox yola əl atmışdır. Rəbbimizin ona verdiyi üstün qavrayış və hikmət sayəsində İsrail oğullarına təsirli nitqlər söyləmiş, hikmətli məsəllər çəkmişdir.

Hz. İsa insanları ancaq Allah`a iman gətirməyə dəvət etmiş, din əxlaqının hakim olacağını müjdələmiş, batil inanclarla, xurafatçılarla və bütpərəstlərlə mübarizə aparmış, dünyanın imtahan yeri olduğunu nümunələr çəkərək açıqlamış, qövmünün əxlaqını düzəltmək üçün səy göstərmiş, üstün əxlaqı ilə də ətrafındakı insanlara gözəl örnək olmuşdur. Ancaq bütün bu fəaliyyətlər düşmənlərinin daha sərt rəftarına, onu öldürmək üçün tələ qurmalarına yol açmışdır.

## Hz. İsanın üstün əxlaqi xüsusiyyətləri

Peyğəmbərimizin (s.ə.v) hədislərində hz. İsa haqqında çoxlu mühüm məlumatlar verilib. Hədislərdə bu mübarək şəxsin xarici görünüşü haqqında bəzi məlumatlar var. Hədislərə əsasən, hz. İsa orta boylu, qırmızıya çalan ağ dərili, çox gözəl görünüşlü insandır. Saçı uzundur, çiyinlərinə tökülür. Yun paltar, ayağına ağac qabığından hazırlanmış səndəl geyinir. Hz. İsa dünyadan üz çevirib, axirəti istəyir, Allah`a ibadətlə vaxt keçirirdi. Hər görənin heyran qaldığı bu mübarək insan hədislərdə belə tərif edilir:

*"Mən bu gecə yuxuda özümü Kəbədə gördüm. Birdən qarabuğdayı bir nəfər gördüm. Sanki o qarabuğdayı insanlar arasında ən gözəli idi, saçı iki kürəyinin arasına tökülmüşdü. Təmizlənmişdi, saçından su damcılayırdı. İki əlini iki nəfərin çiyninə qoyaraq Beyti təvaf edirdi. "Bu kimdir?" deyə soruşdum. Onlar: "Bu, Məryəmin oğlu Məsihdir" dedilər."*

*"... Elə isə, onu gördükdə tanıyacaqsınız. O, orta boylu, ağ-çəhrəyı dərili insandır, sarı geyimdə olacaq."*

Allah`ın seçib göndərdiyi hər peyğəmbər kimi, hz. İsa da bütün üstün əxlaqi xüsusiyyətlərə malikdir. Onu digər insanlardan fərqləndirən ən əsas xüsusiyyətlərindən biri insanların onu görən kimi yüksək əxlaqından və şəxsiyyətindən təsirlənmələridir. Hz. İsa Allah`a təvəkkülü və imanı ilə çox qətiyyətli, cəsarətli, cəmiyyətin təsiri altında qalmayan, əksinə, hər kəsə təsir edən, güclü insandır. Bütün peyğəmbərlərə məxsus olan bu üstünlük ayələrdə belə bildirilir:

***Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq... Biz ona***

*İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. Əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmayılı, Əlyəsəni, Yunisi və Lutu da. Hamısını aləmlərdən üstün etdik. Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. Bu, Allah`ın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir... (Ənam surəsi, 83-88)*

Digər peyğəmbərlər kimi hz. İsa da ədalətdən ayrılmayan, təvazökar, şəfqətli, səmimi, dürüst, fədakar insan kimi Allah`ın seçdiyi peyğəmbərlərdəndir. Bir ayədə Allah hz. İsa haqqında belə buyurur:

*Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir. Biz Məryəm oğlu İsaya açıq-aydın dəlillər verdik və onu müqəddəs Ruh ilə qüvvətləndirdik... (Bəqərə surəsi, 253)*

Hz. İsanın həyatına baxdıqda bu üstün əxlaqi xüsusiyyətlərini görmək mümkündür. Hz. İsa həqiqi dini insanlara təbliğ edən hidayət rəhbəridir. O, həm Allah`ın bütün əmr və tövsiyələrinə ciddi riayət edən, həm də doğru dini təbliğ edərək insanları xurafatlardan təmizləyən yolgöstəricidir. Quranda hz. İsanın Allah`ın bildirdiyi ibadətləri və digər əmrləri cidd-cəhdlə yerinə yetirdiyi belə bildirir:

*Dedi: "Həqiqətən də, mən Allah`ın quluyam! O, mənə kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. O, həmçinin məni anama qarşı olduqca itaətkar etdi... (Məryəm surəsi, 30-32)*

Hz. İsa yer üzündə olduğu müddətdə doğrunu yanlışdan ayırmış, hikmətli, təsirli danışmışdır. Düşmənlərinin onu alçaltmaq üçün pis niyyətlə verdiyi suallara hikmətli, ağıllı cavablar vermiş, düşmənlərinin bütün cəhdlərini boşa çıxarmışdır. O, qövmünün əks münasibətinə baxmayaraq, həmişə təvəkküllü olmuş, Allah`a güclü imanı və ixlası ona güc vermiş, Allah`ın varlığını ən təsirli yollarla təbliğ etmişdir.

Hz. İsa digər peyğəmbərlər kimi təbliğində açıq-aydın, xalqın başa düşəcəyi üslubdan istifadə etmişdir. Verdiyi hikmətli nümunələr insanların vicdanını hərəkətə keçirmiş, onları dərin düşünməyə, Allah`ın rizasına uyğun davranmağa təşviq etmişdir. Hz. İsanın təbliğindən onun Allah`a sevgisi, dərin imanı və Allah`ın əmrlərini yerinə yetirmə cəhdi məlum olur. Təbliğ üslubu onun Allah`ın seçib-bəyəndiyi, insanlardan üstün etdiyi mübarək insan olduğunu göstərir.

## Hz. İsa (ə.s) yer üzünə yenidən qayıdacaq

Hz. İsanın (ə.s) doğulması, həyatı və Allah dərgahına qaldırılması Rəbbimizin təqdiri ilə möcüzəvi şəkildə baş vermiş, bu mübarək peyğəmbərin möcüzəvi həyatı Quranda hərtərəfli təsvir edilmişdir. Allah Quranda bir çox peyğəmbərin qissəsini bizə bildirir. Ancaq hz. İsa (ə.s) müxtəlif cəhətləri ilə digər peyğəmbərlərdən fərqli mövqeyə malikdir. Allah`ın üstün elmlərlə dəstəklədiyi bu dəyərli qulu Allah`ın lütfü ilə hələ beşikdə ikən danışmış və Allah`ın lütfü ilə dünyada qaldığı müddətdə ətrafındakı insanlara böyük möcüzələr göstərmişdir.

Onun xüsusi mövqeyinin digər dəlili də Allah dərgahına qaldırılması və yenidən dünyaya göndəriləcəyinin Quranda bildirilməsidir.

Quranda inkarçıların hz. İsanı (ə.s) öldürmək məqsədilə tələ qurduğu xəbər verilir. Rəvayətlərə görə, hz. İsanın (ə.s) yanındakılardan birinin xəyanəti ilə Allah`ın elçisini həbs edib romalılara təslim etmək istəyiblər. Bu tələnin sonu Quranda belə



bildirilir:

*Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali-İmran surəsi, 54)*

Ayədə də bildirildiyi kimi, hz. İsanı (ə.s) öldürməyə çalışmış, tələ qurulmuşdur. Ancaq onlar hz. İsanı (ə.s) öldürə bilməmişlər, onun bir bənzərini hz. İsa (ə.s) zənn edərək öldürmüşlər. Allah hz. İsanı (ə.s) diri olaraq Öz dərgahına yüksəltmiş, inkarçıların tələsini boşa çıxarmışdır:

*Bir də: "Həqiqətən, biz Allah`ın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!"– dediklərinə görə (lənətə düçar edildilər). Halbuki, onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq (İsanın) bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Həqiqətdə onu (İsanı) öldürməmişdilər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Nisa surəsi, 157-158)*

Romalıların hz. İsanı (ə.s) çarmıxa çəkərək öldürməsi xristianlar arasında yayılıb. Bu yanlış məlumata əsasən, hz. İsanı (ə.s) həbs edən romalılar onu çarmıxa çəkib öldürüblər. Tarixdə bəzi xristian məzhəbləri bunu inkar etsə də, dövrümüzdə, demək olar ki, bütün xristian aləmi hz. İsanın öldürüldüyünü



qəbul edir, öldükdən sonra dirilərək göyə yüksəldiyinə inanır. Ancaq Quran ayələrində hz. İsanın (ə.s) ölmədiyi və öldürülmədiyi, inkarçılara onun bənzərinin göstərildiyi, hz. İsanın (ə.s) diri olaraq Allah dərgahına yüksəldildiyi bildirilir:

> ***Bir də: "Həqiqətən, biz Allah`ın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" (qatəlna)– dediklərinə görə (lənətə düçar edildilər.) Halbuki, onu nə öldürdülər (ma qatələhu), nə də çarmıxa çəkdilər (ma saləbə). Onlara ancaq (İsanın) bənzəri göstərildi (şubbihə). Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Həqiqətdə onu (İsanı) öldürməmişdilər (ma qatələhu). (Nisa surəsi, 157)***

Həmin ayənin davamında hz. İsanın (ə.s) ölmədiyi belə bildirilir:

> ***Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır (rəfəə). Şübhəsiz, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Nisa surəsi, 158)***

Allah insanlara hz. İsanın bənzərini göstərmiş və hz. İsanı (ə.s) inkarçıların qurduğu tələdən qoruyaraq Öz dərgahına yüksəltmişdir. Habelə, Allah hz. İsanın öldüyünü iddia edənlərin, əslində, bu barədə məlumatı olmadığını da bildirir.

Hz. İsanın yer üzünə yenidən gələcəyi müsəlmanlar üçün çox vacibdir. O, Allah`ın möcüzəsi ilə atasız doğulmuş, İsrail oğullarını doğru yola dəvət etmiş, onlara çoxlu möcüzələr göstərmiş peyğəmbərdir. Məsihdir və Qurana əsasən, Allah`ın sözüdür (Nisa surəsi, 171). Onun yenidən yer üzünə gəlməsi ilə Allah`a inanan, eyni əxlaqi dəyərlərə malik, Qurana görə bir-birlərinə sevgi-dostluq baxımından ən yaxın olan (Maidə surəsi, 82) xristianlarla müsəlmanlar arasındakı ixtilaflar aradan qalxacaq və dünyanın bu iki böyük cəmiyyəti birləşəcək. Yer üzündəki üçüncü İlahi dinin mənsubları, yəni yəhudilər də həqiqi Məsihləri olan hz. İsaya iman gətirərək hidayət tapacaqlar (Nisa surəsi, 159). Beləliklə, üç ilahi din birləşəcək, yer üzündə Allah`a iman və Onun peyğəmbəri hz. İsaya itaət təməli üzərində qurulan bir din qalacaq. Bu din Allah`ı inkar edən fəlsəfi cərəyanları və bütpərəst inancları ideoloji cəhətdən məğlub edəcək, beləliklə, dünya müharibələrdən, qarşıdurmalardan, irqçilikdən və etnik düşmənçilikdən, zülm və haqsızlıqdan xilas olacaq, Qızıl Əsr başlayacaq, bəşəriyyət sülh və əmin-amanlıq içində xoşbəxt yaşayacaq.

O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlimə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və (Allaha) yaxınlaşdırılmışlardan olacaqdır.

Ali-imran surəsi, 45

# TERRORUN DİNİ YOXDUR



Dünyanın hər yerində zülmün, zorakılığın və nifrətin adiləşdiyi dövrdəyik. Demək olar ki, hər gün bir bölgədən qanlı xəbərlər gəlir və zorakılığın hədəfi də əsasən məsum insanlar olur.

Ötən günlərdə Keniya və Pakistanda baş verən terror hadisələri də dünya gündəminə bir daha İslam və zorakılıq mövzusunu gətirdi. İslamın sevgi və sülh dini olduğunu, inancı, irqi, dili və düşüncəsindən asılı olmayaraq hər kəsin birinci sinifdən olan insan münasibəti görməsini müdafiə edən din olduğunu bütün dünya bilir. Bəs necə olur ki, müsəlman aləmində bu qədər çox zorakılıq və zülm baş verir?

Bu sualın cavabını tapmaq üçün İslam dünyası daima Qərbi təqsirləndirir, Qərb də İslamı və müsəlmanları anlamağa çalışmır, odur ki, problemə həll yolu gətirmək mümkün olmur. Halbuki, bu zülm birtərəfli deyil. Birtərəfli olmadığına görə, bir tərəfin mövqeyi ilə bu zülmə son qoyula bilməz.

Heç bir din zülmü və zorakılığı əmr etməz. Heç bir din zalımlığa, eqoistliyə, sevgisizliyə təşviq etməz. İnsanları Allah`ın yaratdığı bərabərhüquqlu qullar kimi görən, təvazökarlığı, səbiri, şəfqəti, qarşılıqsız sevməyi buyuran din əxlaqının yerinə ziddiyyət tərəfdarı olan ideologiyaları qoyduqda zorakılıq və zorakılığa zəmin hazırlayan şərtlər formalaşır. İslam



coğrafiyasında terroru mübarizə metodu kimi mənimsəyənləri təhlil etdikdə də böyük əksəriyyətinin ya Qərb dünyasında təhsil aldığını, ya da öz ölkələrində zorakılığa meyilli qurumlardan təsirləndiyini görürük.

Yolda saxladıqları insanlardan namazın şərtlərini soruşub cavab almadıqda güllələyən, “xristiansanmı?” sualına “bəli” cavabı aldıqda silahını götürüb zalımlıqla bu məzlumları öldürən insanların özlərini müsəlman kimi təqdim etməsi, adlarının müsəlman adı olması bu zalımları müsəlman etmir.

**İslamın mənbəyi sevgi, şəfqət və dostluqdur. Qurandakı “mənim dinim mənə, sənin dinin sənədir” hökmü və “dində məcburiyyət yoxdur” əmrinə əsasən, müsəlmanlar fikir və inanc azadlığını müdafiə etmək və qorumaqla məsuldurlar. Cinayət törədən birini belə “bağışlamaq sizin üçün daha xeyirlidir” hökmünü verən bir dinin döyüşün, qarşıdurmanın, zorakılığın tərəfdarı olduğunu demək həm ciddi məlumatsızlıq, həm də vicdansızlıqdır. Qurana əsasən, bir nəfərin ölümünün bütün bəşəriyyətin ölümü olduğu kimi, hər müsəlman bir insanı xilas etməyin bütün dünyanı xilas etmək kimi olduğuna iman gətirməklə məsuldur. Üstəlik, dininə, həyat tərzinə, düşüncəsinə görə ayrı-seçkilik etmədən...**

Quranın bu açıq hökmlərinə baxmayaraq, terroru və zorakılığı əsas tutan bəzi müsəlmanları bu səhvə təşviq edən səbəblərin başında Qurandan uzaqlaşmaq durur. Qurana zidd olan və səhih olmadığı açıq-aydın bəlli olan hədisləri mənimsəyən xurafatçılıq cahilliklə birləşdikdə nifrət və qəzəb dolu sistem meydana gəlir.

Bunun qarşısını almağın yeganə yolu İslam coğrafiyasına yenidən Quran əxlaqının hakim olmasıdır. Xristianların Məscidi-nəbəvidə ibadət etməsinə icazə verən, yəhudi və xristian qonaqlarının oturması üçün altlarına öz əbasını sərən, yəhudinin cənazəsi keçdikdə ayağa qalxan bir Peyğəmbərin ümməti bu nümunələrdən çox dərs almalıdır. Bunun üçün də İslam aləmi həm Quranı, həm də Peyğəmbərimizi (s.ə.v) daha yaxından tanımalıdır. Xurafatlardan təmizlənmiş, ağıllı, düzgün düşüncə tərzi ilə İslamın gözəlliyini yenidən kəşf etməlidir. Bu, təhsil yolu ilə mümkündür.

Zülmün sona çatmasında Qərb aləminin də üzərinə vəzifələr düşür. Dürüst davranıb XX əsrin əvvəlindən bəri yeritdiyi siyasətin səbəb olduğu zülmlə üzləşərək ilk addımı ata bilər. Bu üzləşmədə İslam coğrafiyasını öz mənfəətinə görə formalaşdırmaq üçün xalqların hüquqlarına və istəklərinə barmaqarası baxmağın ağıllı yol olmadığını görər. Şübhəsiz ki, hər dövlət, əvvəlcə, öz vətəndaşlarının və ölkəsinin mənfəətini düşünür. Ancaq bunu digər milləti əzərək və hər cür hüququnu tapdalayaraq edərsə, bilməlidir ki, bir müddət sonra bu vəziyyət özü üçün ikiqat bəlaya çevriləcək. Bu gün də Qərb dünyası öz əli ilə inşa etdiyi bu bəlanı aradan qaldırmağa çalışır. Ancaq çarəsizdir və hələ də doğru yolu tapmır.

Keçən əsrin xətaları ilə meydana gələn bu bəlanı aradan qaldırmağın yolu yeni bir sivilizasiya inşa etməkdir. Silahla, təzyiqlə, diktator rejimlərini dəstəkləyərək, diz çökdürərək sivilizasiya inşa edilməz. Sivilizasiya təfəkkürü dəyişdirərək edilər. Bunun üçün birlikdə Şərq və Qərbdə yeni təhsil səfərbərliyinə başlayaq. Allah`ın bizdən istədiyi sülhsevər, mərhəmətli, mehriban, tolerant, kamil əxlaqı yenidən bütün insanlara öyrədək. Sevgini aşılayan müəllimlər olaraq.

Qərbin və İslam dünyasının ağıllı, vicdanlı insanları birləşərsə, qısa müddət ərzində böyük dəyişikliklər edə bilərik. Unutmayaq ki, yaxşılar sayca çoxdur, ancaq birləşmirlər, pislər isə sayca az olmalarına baxmayaraq, birləşirlər və qətiyyətli davrandıqları üçün daha təsirli olurlar.

# Ailə həyatında qadına verilən dəyər

İnsanların dünyəvi dəyərlər üzərində qurduqları ailələr qısa müddətdən sonra cansıxıcı ola bilər. Ailələrdə bu hala tez-tez rast gəlmək olur. İnsanlar hörmət və sevgilərini dünyəvi dəyərlər üzərində qurduqda və bu dəyərlərdə hər hansı bir dəyişiklik olduqda bu hisslərini dərhal itirə bilirlər. Sevgi, hörmət, sədaqət kimi anlayışlar gözəllik, zənginlik, sağlamlıq, mövqe, ya da etibar kimi meyarlara əsaslandığında bu nəticə, demək olar ki, qaçılmaz olur. Əgər insan sevgisini qarşısındakı insanın yalnız gözəlliyinə əsaslandırmışsa, həmin insan zaman keçdikcə gəncliyini, sağlamlığını, gözəlliyini itirər, buna görə də sevgi, hörmət və sədaqət də bununla birlikdə yox olar. Həmçinin zənginlik, ya da mövqe kimi dəyərlər də asanlıqla itirilməsi mümkün olan xüsusiyyətlərdir. Özünə bu dəyərləri əsas meyar kimi götürən bir insan bunları itirdikdə artıq qarşısındakı insanı sevməyə, ona hörmət etməyə davam etmək üçün heç bir səbəb tapa bilməz.

Sevgini, hörməti və sədaqəti daimi edən iman, Allah qorxusu və gözəl əxlaqdır. Bir insanı imanı və əxlaqı üçün sevən insan ailə həyatında da qarşısındakına qarşı hörmət bəsləyən, sadiq və gözəl əxlaqlı olar. Nə gəncliyini, sağlamlığını gözəlliyini itirməsi, nə də zənginlik kimi xüsusiyyətlərini itirməsi həmin insanın sevgisinə və qarşı tərəfə verdiyi dəyərə təsir edə bilər. İmanı və Allah qorxusu olduğundan heç vaxt qarşı tərəfi narahat etməz və çətinliyə salmaz. Quran əxlaqına uyğun olaraq həmişə şəfqətli, mərhəmətli, ədalətli və xoşniyyətli olar, Allah qarşısında məsuliyyət daşıdığını unutmaz. Allah Quranda ailədə qadın və kişinin bir-birlərinə olan məsuliyyətini ***"… Onlar sizin, siz də onların libasısınız …" (Bəqərə surəsi, 187)*** ayəsində bildirir. Allah bu ayədə insanlara qadın və kişinin ailə həyatında bir-birlərinə qarşı bərabərhüquqlu olduqlarını da xatırladır. Allah'ın ayədə bildirdiyi "libas" ifadəsi tərəflərin bir-birinin üzərindəki qoruma xüsusiyyətlərini göstərir. Bu ayədə həmçinin qadın və kişinin bir-birini tamamlayan xüsusiyyətlərinə də diqqət yetirilir.

Allah başqa bir ayədə də ***"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!" (Rum surəsi, 21)*** ifadəsi ilə ailədə sevgi və mərhəmət anlayışlarının əhəmiyyətinə diqqət cəlb edir. İman edənlər ailədə qarşılıqlı olaraq bir-birini Allah'ın onlara olan bir neməti və əmanəti qəbul edir, bundan ötrü də bir-birinə böyük dəyər verirlər. Hər cür çətinlik, ya da səhvlik qarşısında sevgi və mərhəməti əsas götürərək hərəkət edirlər. Qurana uyğun davranışın hər çətinliyin öhdəsindən gələcəyini və qarşılaşdıqları problemləri həll edəcəyini bilirlər. Bu da Allah'ın ayədə ifadə etdiyi kimi, evliliyin mömin qadın və mömin kişinin rahatlığı üçün nemətə çevrilməsinə səbəb olur.

Allah Quranın ***"… bir-birinizlə yaxınlıq etmişdiniz…" (Nisa surəsi, 21)*** ayəsi ilə evliliyin verdiyi səmimiyyətə və yaxınlığa da diqqət yetirmişdir. İman edənlərin evlilikdəki bu səmimi və yaxınlıqlarının, bir-birlərini dəyərləndirməsinin səbəbi onların axirətdə də sonsuzadək davam edən bərabərliyi qarşılarına məqsəd qoymalarıdır. Əsl sədaqət bu düşüncəni tələb edir. Aralarında mənfəətə əsaslanan müvəqqəti sevgi olmadığından və qarşılarına axirətdə sonsuzadək birlikdə olmağı məqsəd qoyduqları üçün çox sadiq, yaxın və səmimi olurlar.

Göründüyü kimi, Quran əxlaqı əsas götürüldüyündən hər iki tərəf Allah'dan qorxduqları və vicdanlı olduqları üçün daim gözəllik içində yaşayırlar. Bu cür sədaqət, vəfa, hörmət, sevgi, səmimiyyət, xoşniyyət kimi vacib əxlaq xüsusiyyətlərinin nəticəsində ailə davamlı və sabit olur. Bu xüsusiyyətlərdən məhrum insanların evliliyi isə qısa olur.

Buna görə də İslam əxlaqında ailəli olmaq qadın üçün böyük rahatlıqdır. Sevgini, hörməti, sədaqət və vəfa hisslərini ən gözəl şəkildə yaşadığı bərabərlikdir. Qarşısındakı insandan həmişə hörmət, sevgi və qayğı görür. Mübahisə, mənfəət mübarizəsi, üstünlük axtarışı, qürur, yalan kimi pis xüsusiyyətlərinin olmaması qadının ailədə Allah'ın ayədə bildirdiyi kimi, hüzur və rahatlıq tapmasını təmin edir.



Peyğəmbərimiz (s.ə.v) öz həyatı ilə bu mövzuda bütün möminlər üçün nümunə olmuşdur. Allah "***Həqiqətən, Allah`ın Rəsulu Allah'a, qiyamət gününə ümid bəsləyənlər və Allah'ı çox zikr edənlər üçün gözəl örnəkdir!" (Əhzab surəsi, 21)*** ayəsi ilə buna diqqət yetirmişdir. Peyğəmbərimiz (s.ə.v) bir çox sözündə mömin qadınların nə qədər dəyərli olduqlarını ifadə etmişdir. Bu sözlərindən birində: "Dünya müvəqqəti bərbəzəkdir. Dünya bərbəzəyinin ən xeyirlisi isə salehə qadındır", -şəklində buyurmuşdur.

Bir başqa hədisdə isə ailədə qadına göstərilməsi gərəkən qayğını və verilməli olan dəyəri: "Ən yetkin imana sahib mömin xasiyyəti ən gözəl və ailəsinə qarşı ən nəzakətli, lütfkar olandır", -sözləri ilə ifadə etmişdir. Bundan başqa, Peyğəmbərimizin (s.ə.v) göstərdiyi gözəl əxlaq bu sahədə bütün müsəlmanlar üçün gözəl nümunə olmuşdur. Bir hədisdə evlilikdə qadınlara qarşı göstəriləcək gözəl əxlaqın əhəmiyyətini belə xatırlatmışdır:

*"Ən xeyirliniz, xanımlarına qarşı ən xeyirli olanınızdır. Mən xanımlarına qarşı sizdən ən yaxşı olanıyam".*

Bundan başqa Peyğəmbərimiz (s.ə.v) vida xütbəsində: "Qadınlar sizə Allah`ın bir əmanətidir", -şəklində buyuraraq qadınlara qarşı necə münasibət göstərmək lazım olduğunu bir daha vurğulamışdır.

Bütün həyatında olduğu kimi, ailə həyatında da iman edənlər üçün gözəl nümunə olan Peyğəmbərimiz (s.ə.v) xanımlarına qarşı daima şəfqət, mərhəmət və gözəlliklə davranmışdır. Hz. Aişədən (r.a) rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v) xanımlarına qarşı insanların ən mülayimi, ən gülərüzlü olanı idi.



# MÜSƏLMAN DÜNYASININ SÜLHƏ QOVUŞMASININ YEGANƏ HƏLLİ: QURAN MÜSƏLMANLIĞI

**Quran müsəlmanlığının kökündə gözəllik, keyfiyyət və xoşbəxtlik var**

Asiya Afrika ilə əlaqəli strateji mövqeyi, məhsuldar torpaqları, yeraltı və yerüstü sərvətləri ilə yanaşı, mədəni zənginliyi, tarixi keçmişi ilə heç vaxt uduzmayıb. İslam dünyası təkcə regional sülhün deyil, qlobal sülhün də baş aktyorlarından biridir. Tarixi və mədəni cəhətdən dünyanın ən zəngin sivilizasiyalarının beşiyi olan bu seçilmiş bölgə son dövrdə qan gölünə çevrilib. Sivilizasiyalar diyarını bu gün duman bürüyüb.

Xurafatçılıq və Qurana əsaslanan həqiqi İslam bir-birinə tamamilə ziddir. Bir çox İslam ölkəsində İslam adı altında Qurana zidd model yayılıb. Bu modeli müsəlmanlıq adı altında həyata keçirən insanların həyat tərzi Quran əxlaqından uzaqdır.

Bu ölkələrdə qatı cəhalətə əsaslanan xurafatçılıq, adət-ənənə və mövhumatlardan ibarət yanlış din anlayışı hakimdir. Nəticədə isə hər cür vəhşilik və şiddətə qapı açan, elm, incəsənət, estetika, modernizm və mədəniyyətdən uzaq, qadınlarla ikinci sinif varlıqlar kimi davranan cəmiyyət və həyat modeli ortaya çıxıb. Müsəlman ölkələrin böyük əksəriyyəti atadan oğula keçən, dövlət tərəfindən rəsmi qəbul etdirilən əcdadlarından qalma din anlayışını İslam kimi mənimsəyib. Özlərini müsəlman adlandıran bu məfhum İslam ölkələrindəki bütövlüyü, sevinci, dindarlığı, incəsənəti, üstün əxlaqı, dostluğu və keyfiyyəti yox edib.

***"Dində məcburiyyət yoxdur"*** ayəsinin hökmünə zidd olmasına baxmayaraq (Bəqərə surəsi, 256), bir



sıra İslam ölkələrində bəzi radikal fəaliyyətlərlə ciddi təzyiq rejimi formalaşdırılıb. Ancaq təzyiq insanların iman gətirməsinə deyil, əksinə, mənəvi pozuntuya səbəb olub. Bu ölkələrdəki İslam adı altında həyata keçirilən fəaliyyətlərin çoxu sadəcə kənardan müsəlman görünməsini hədəf almış, bəzi insanlar da buna aldanaraq müsəlman kimi görünmüş, lakin əslində, mənəvi pozuntuya məruz qalmışlar. Səmimiyyət dini olan İslamla yaşamaq əvəzinə ikiüzlü davranmağa məcbur edilmişlər. Hal-hazırda, bir çox repressiv İslam ölkəsində gənclərin böyük əksəriyyətinin mənəvi çöküntü içində olması bu səbəbdən sürpriz deyil. Halbuki, bütün müsəlmanlar dinimizin əslini, kökünü araşdıraraq, İslamın əsl mənbəyi olan Quranı oxuyaraq öyrənməlidirlər. Bu, bütün müsəlmanların İslam adı altında yaşadıqları cəhalətdən dərhal xilas olmalarına səbəb olacaq.

### İslamda sevgi əsasdır:

Allah sevməyi sevir. Müsəlmanın fitrətində də sevgi var. Uca Rəbbimiz ***"İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman bir sevgi yaradacaq" (Məryəm surəsi, 96)*** ayəsində müsəlmanların qəlbində nifrət deyil, sevgi olduğunu xəbər verir.

### İslamda kitab əhlinə (yəhudi və xristianlara) nifrət yoxdur:

Kitab əhlinə şəfqətlə yanaşmaq, onları qorumaq və sevgi bəsləmək əsasdır. Uca Allah "Maidə" surəsinin 5-ci ayəsində yəhudi və xristianların yeməyini müsəlmanlara halal edib. Eyni ayədə bir müsəlmanın kitab əhlindən olan bir qadınla evlənməsini də halal edib. Yəni Quran ayəsinə görə bir yəhudi və ya bir xristiana nifrət bəslənməməlidir.

"Əraf" surəsinin 159-cu ayəsində Allah yəhudilər arasında "haqq ilə doğru yola yönəldən camaat" olduğunu bildirir. "Ali-İmran" surəsini 113, 114 və 199-cu ayələrində, "Qəsəs" surəsinin 52-ci ayəsində, "Nisa" surəsinin 162-ci, "Bəqərə" surəsinin 62-ci, "Maidə" surəsinin 12-ci və 69-cu ayələrində Allah Allah`a dərindən iman gətirən yəhudi və xristianların olduğunu xəbər verir, onları gözəl mükafatla müjdələyir. Bəzi xurafatçıların nifrət bəslədiyi kitab əhli (bütün yəhudi və xristianları tənzih edirik) Qurana əsasən, müsəlmanların dostudur, hətta həyat yoldaşıdır.

### İslama əsasən, Quranı hər kəs öz dilində, hər şərtdə və hər yerdə oxuya bilər:

Rəbbimiz ***"Allah`ın evlərinizdə oxunan ayələrini və hikməti xatırlayın…"*** ayəsi ilə Quran ayələrinin daima oxunmasını və hikmətinin, yəni mənasının başa



düşülüb unudulmamasını bildirir. Quran hər yerdə həmişə rahatlıqla oxuna bilər. Qurana toxunmağı qadağan edən hökm yoxdur. Quranı anlamaq əsasdır. Ona görə, hər kəs öz dilində oxuyub ayələrin hikmətini anlamalıdır. "Zuxruf" surəsinin 44-cü ayəsinə əsasən, müsəlmanların hamısı axirətdə xurafatçıların divardan asıb unutduqları və ya ərəb dilində oxuyub anlamadıqları Qurandan sorğu-sual olunacaqlar. Ona görə, heç kim xurafatçıların insanları Qurandan və ibadətlərdən uzaqlaşdırmasına aldanıb bu həqiqəti unutmamalıdır.

## İslamda kədərlənmək yoxdur:

İslam sevinc və xoşbəxtlik dinidir. Allah müsəlmanlara gülməyi, xoşbəxt olmağı yaraşdırır. Ağlamaq və kədərlənmək Qurana əsasən, cəhənnəm əhlinin xüsusiyyətidir. Allah onlar haqqında: ***"Az gülüb çox ağlasınlar" (Tövbə surəsi, 82)*** - deyir. Ona görə, müsəlman gülərək, xoşbəxt olaraq, sevinc içində Allah`dan razı olaraq yaşamaqla məsuldur.

## İslamda keyfiyyət, təmizlik, gözəllik, incəsənət, estetika, elm, təhsil var:

İllərdir baxımsız, səliqəsiz paltarları ilə İslamı təmsil etdiklərini deyən bəzi insanlar, əslində, xurafatı dinə çevirməyə çalışıblar. Allah Quranda ***"Libasını təmizlə! Pis şeyləri tərk et!" (Muddəssir surəsi, 4-5)*** ayələrində müsəlmana geyimini və evini təmizləməyi buyurur. Düşünməyi, elmdə dərinləşməyi tövsiyə edir. Quranda hz. Süleymanın (ə.s) sarayı gözəllik və estetikanın ən gözəl nümunələrindən biri kimi təsvir edilir. Odur ki, müsəlman dünyanın ən baxımlı, ən keyfiyyətli, ən mədəni insanı olmalıdır.

Keyfiyyət müsəlman üçün həyatın hər sahəsində vacib olan xüsusiyyətdir. Lakin İslam dinini yanlış anlayanlar çox keyfiyyətsiz həyat tərzini İslam adı altında tanıdır və tətbiq edirlər. Ona görə də bəzi insanlar İslam dinini bu insanların yaşadığı həyat tərzi qəbul edir və İslama əks-münasibət bəsləyirlər. Xurafatçılıq ucbatından müsəlmanlar bir çox ölkədə pis münasibətə məruz qalırlar. Çünki əksərən baxımsız, kirli, çirkin, İslama və Qurana zidd sistem İslam dini kimi təqdim edilir.

Xurafatçıların yemək əxlaqında, geyimlərində, danışıqlarında keyfiyyətsizlik hakimdir və bu keyfiyyətsiz həyat tərzində israrlıdırlar. Gözəlliyi tamamilə aradan qaldıran model formalaşdırılıb və gözəllik haram kimi göstərilir, çirkin, baxımsız insanın təqvalı olduğu iddia olunur. Xurafatçılıqda musiqi haramdır, rəssamlıq haramdır, insanlardan uzaq olur,



dindirmir, iltifat etmirlər. Bu qəribə anlayışı din kimi qəbul edən insanlar keyfiyyətsiz həyat yaşayır və ətraflarına sıxıntı verdikləri kimi, özləri də bir müddət sonra həyatdan küsürlər.

## Allah`ın cənnətdə yaratdığı gözəllik və keyfiyyətin dünyadakı bənzəri ancaq həqiqi İslam əxlaqı ilə qazanıla bilər

Həqiqi İslam dinində iltifat, fədakarlıq, incə düşüncə, sülh, sevgi, şəfqət, mərhəmət, demokratiya, fikir azadlığı, əyləncə, sevinc, estetik memarlıq, gözəl, baxımlı, cazibədar insanlar var.

Dünyada bütün nemətlərdən uzaqlaşan, nemət sevgisini İslama zidd hesab edən və gözəl evləri, gözəl geyimləri, nemət içində həyatı özlərinə deyil, Allah`dan uzaq yaşayanlara yaraşdıran xurafatçılar səfil həyatı din kimi göstərməyə çalışırlar. Halbuki, Allah bütün gözəl nemətləri iman gətirənlərə layiq edib. Nemətləri haram etməyə çalışanlar ayədə belə xəbər verilmişdir:

*De: "Allah`ın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında (hamıya), qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə¬ izah edirik. (Əraf surəsi, 32)*

Gözəllik, sevinc, keyfiyyət, xoşbəxtlik, müasirlik, sevgi, şəfqət müsəlmanlar üçündür. Qurandakı müsəlman modeli budur. Quranda tərif edilən müsəlman ağıllıdır, təhsillidir. Müasirdir, nikbindir, kübardır, nifrəti aradan qaldırır, sevgini bərqərar edir. Qurandakı müsəlman kədərin deyil, sevincin, münaqişənin deyil, sülhün tərəfdarıdır. Gözəldir, baxımlıdır, gözəl geyinir, gözəl ətirlərdən istifadə edir, tər-təmiz evlərdə yaşayır. Bunun üçün varlı olmasına, başı açıq və ya örtülü olmasına ehtiyac yoxdur. Gözəllik, müasirlik, əsalət və keyfiyyət tər-təmiz geyimlərdə, baxımlı bədəndə, gözəl üslubda və sevgi dolu aydın çöhrədə təbii olaraq özünü büruzə verir.

İslam dünyasının həqiqi Quran əxlaqı ilə yaşayan ziyalı, sülhsevər insanlara ehtiyacı var. İslama xurafatlar əlavə etməyə çalışan, halalları haram edən, dünyaya qəzəb və nifrət gətirən yanlış modeli dərhal tərk etmək lazımdır. Məhz buna görə, Qurana tabe olan əsl müsəlmanların Qurandakı müsəlman modelini dünyaya göstərməsi, çox keyfiyyətli və mehriban olması, İslamı yanlış anlayan insanları maarifləndirməsi çox vacibdir. Allah da bizdən bunu istəyir.



# ALLAH`IN

## CANLILARDAKI RƏNG SƏNƏTİ

Yer üzündəki bütün rəngləri yaradan Allah`dır. Səma, dağlar, tarlalar, kəpənəklər, qırmızı almalar, portağallar, tutuquşular, qırqovullar, bənövşəyi üzümlər, ağaclar, qısası, ətrafınızda gördüyünüz hər şey Allah istədiyi üçün bu rənglərə malikdir. Allah bir ayəsində bu həqiqəti bizə belə bildirir:

***... Budur Allah`ın rəngi... Allah`ın rəngindən daha gözəl olan kimdir?! Biz ancaq Ona ibadət edənlərik. (Bəqərə surəsi, 138)***

Rənglər insanlara ətrafı tanımaqda kömək etdiyi kimi digər canlıların həyatlarında da mühüm əhəmiyyət kəsb edir.

Canlıların işıq və qavrama sistemlərinə görə işləyən “rəng dili” var. Yəni hər canlı növü üçün rənglərin ifadə etdiyi mənalar fərqlənir. Hər canlı həyatını davam etdirməsi üçün yaşadığı mühitdəki rənglərin dilini bilməlidir. Çünki həyat fəaliyyətləri ancaq bu dilin qavranılması ilə davam etdirilir.

### Canlılar rəng dilindən necə istifadə edirlər?

Ana quş balalarına yem verərkən dimdiklərinin rənginə görə qərar verirlər.

Əvvəla, canlıların böyük əksəriyyətinin qida tapmaq üçün rənglərin köməyinə ehtiyacı var. İkincisi, canlıların dəri, pulcuq və kürklərindəki rənglər xüsusilə temperaturu yayma və ya saxlama xassələri ilə canlıların həyatı üçün böyük rol oynayırlar. Bundan əlavə, canlılar düşmənlərindən qorunarkən də rənglərindən istifadə edirlər. Yaşadıqları mühitlə uyğunluq təşkil edən rəngləri sayəsində kamuflyaj olur, düşmənlərindən gizlənirlər. Yaxud rəngləri





və naxışları ilə düşmənlərini qorxudub qaçırdırlar. Rənglər həm də canlılara qarşı cinsi və ya balalarını tanımağa kömək edir. Məsələn, ana quş balasının qida ehtiyacını dimdiyinin rəngindən anlayır. Eyni şəkildə, bala da anasını bu yolla tanıyır və anasının yem gətirdiyini anlayır.

Təbiətdəki nümunələrdən də göründüyü kimi, canlılar həyatlarını davam etdirmək üçün rənglərin mənalarını doğru bilməlidirlər. Bu məlumatı doğru bilmək üçün rəngləri qavrayan sistemləri olmalıdır.

Əgər bu sistemlər olmasa, xarici mühiti anlamaz və həyat üçün lazımi fəaliyyətləri yerinə yetirə bilməzdilər. Qidalarını tanımaz, düşmənlərini ayırd edə bilməzdilər. Ona görə, xarici mühitdən təcrid olub ölümə məhkum olardılar.

Qırqovullar da rəng dilindən ustalıqla istifadə edirlər. Bu canlıların rəng qavrama sisteminin təsadüfən əmələ gəldiyini iddia etmək ağlasığmazdır. Çünki hər sistem, hər ahəng, hər dizayn, hər proqram, hər müvazinət bir dizayner, bir proqramçı tərəfindən yaradılıb. Bu uyğunluğu ən mükəmməl şəkildə canlıların orqanizmində və yaşadıqları mühitdə yerləşdirən bir iradə, bir qüvvə mütləq var. Bu qüvvənin sahibi, üstün elmlə həm mühiti, həm canlıları, həm də sistemlərini əhatə edir. Bu gücün sahibi aləmlərin Rəbbi olan Allah`dır.

***Məgər Allah`ın göydən yağmur endirdiyini və onunla müxtəlif rəngli meyvələr yetişdirdiyimizi görmürsənmi? Dağlarda da müxtəlif rəngli – ağ, qırmızı və tünd qara yollar əmələ gətirdik. İnsanlar, heyvanlar və mal-qara arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allah`dan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah qüdrətlidir, bağışlayandır. (Fatir surəsi, 27-28)***





... Budur Allah`ın rəngi... Allah`ın rəngindən daha gözəl olan kimdir?! Biz ancaq Ona ibadət edənlərik.

(Bəqərə surəsi, 138)